# GÜRCÜSTAN

SAYI 09-10 (13.379)
CÜMƏ 7 FEVRAL 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი


E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## BAŞ NAZİRDƏN AÇIQLAMA: "AVROPA ŞURASI İLƏ ƏMƏKDAŞLIĞI DAVAM ETDİRƏCƏYİK"



**Baş nazir İrakli Kobaxidze ölkənin Avropa Şurasının üzvü kimi əməkdaşlığa tam açıq olduğunu bildirib.O, bu barədə "İmedi" telekanalının "Həftənin icmalı" verilişində bildirib.** Baş nazir qeyd edib ki, Avropa Şurasının baş katibi Gürcüstana səfəri zamanı konkret məsələlər üzrə razılıq əldə olunub: *"Parlament Assambleyası böyük əhəmiyyət daşımır, lakin biz Avropa Şurasının üzvü olaraq qalırıq. Baş katiblə konkret məsələlərdə razılığa gəldik və təşkilatla əməkdaşlığı davam etdirəcəyik"*, - deyə Kobaxidze vurğulayıb. Xatırladaq ki, əvvəlcə AŞPA, Gürcüstan nümayəndə heyətinin səlahiyyətlərini müəyyən məhdudiyyətlərlə qəbul edib, tam çıxarılmasına dair təklifi rədd edib. Buna cavab olaraq, hökumət AŞPA-da iştirakını dayandırıb, Gürcüstana qarşı *"ədalətsiz yanaşma"*nın dayandırılmasını tələb edib.

## PREZİDENT PARLAMENTİN YAZ SESSİYASINDA ÇIXIŞ EDƏRƏK DEYİB: "GÜRCÜSTAN BELƏ ƏDALƏTSİZ MÜNASİBƏTƏ LAYİQ DEYİL"



***"Avropa ideyası uğrunda əsrlər boyu davam edən mübarizədən sonra, Gürcüstan belə ədalətsiz münasibətə layiq deyil—Gürcüstana qarşı ikili standartlar Avropa dəyərlərinə və avropalı tərəfdaşların nüfuzuna xələl gətirir".*** Bu sözləri prezident Mixail Kavelaşvili parlamentdə çıxışı zamanı deyib. O bildirib ki, Gürcüstan son vaxtlar bir sıra avropalı tərəfdaşların ədalətsiz hücumlarının hədəfinə çevrilib: *"Bu, gürcü xalqının ədalət, qarşılıqlı hörmət, qanunun aliliyi, milli kimliyi və suverenliyi qoruyub saxlamaq ümidi ilə irəliləmək qərarına gəldiyi məkan baxımından xüsusilə məyusedicidir. Gürcüstana münasibətdə praktiki olaraq gündəlik hadisəyə çevrilən ikili standart, təəssüf ki, Avropa dəyərlərinə və avropalı tərəfdaşların reputasiyasına xələl gətirir. Biz ölkəmizi sülh şəraitində gücləndirmək və inkişaf etdirmək məqsədi daşıyan milli maraqlarımıza uyğun fəaliyyət göstərməyə davam etməliyik"*, - deyə Mixeil Kavelaşvili qeyd edib. Prezident həmçinin, ABŞ ilə münasibətlərə də toxunub. O, ABŞ - Gürcüstan münasibətlərinin Donald Tramp dövründə yenidən qurulacağına əmin olduğunu vurğulayıb.

## BMT-NİN BAŞ KATİBİ: "QƏZZADA ETNİK TƏMİZLƏMƏNİN QARŞISI ALINMALIDIR"

***BMT-nin baş katibi Antonio Quterreş Qəzza münaqişəsinin həlli üçün etnik təmizləmənin qarşısının alınmasının vacib olduğunu deyib.***

Bu barədə onun mətbuat katibi Stefan Düjarrik brifinqdə bildirib.

*"Beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq, etnik təmizləmənin istənilən formasına yol verilməməlidir"*, - deyə S. Düjarrik bildirib.

O qeyd edib ki, A. Quterreş hələ də "iki xalq üçün iki dövlət" konsepsiyasını dəstəkləyir.

Jurnalistlərin suallarını cavablandıran S.Düjarrik vurğulayıb ki, xalqların hər hansı məcburi köçkünlüyü *"etnik təmizləmə"* sayıla bilər, buna görə də BMT ABŞ prezidenti Donald Trampın Qəzza zolağının Amerikanın nəzarətinə keçməsi ilə bağlı bəyanatlarını dəstəkləmir.



## GÜRCÜSTAN HÖKUMƏTİ "XARİCİ AGENTLƏR" HAQQINDA QANUNUN DAHA SƏRT VERSİYASINI QƏBUL EDƏCƏK

***Hakim "Gürcü Arzusu" partiyası ABŞ-nin "FARA" (Xarici Agentlərin Qeydiyyatı Aktı) qanununun hazırkı versiyasının surəti olacaq yeni qanun layihəsi təşəbbüsü irəli sürəcək.***



Bu barədə hakim partiyanın icraçı katibi Mamuka Mdinaradze bildirib.

*"ABŞ-nin yeni hökuməti etiraf edib ki, Amerika maliyyəsi müxtəlif ölkələrdə, o cümlədən Gürcüstanda iğtişaşlara və inqilaba dəstək üçün istifadə olunub. Keçən il Parlament "FARA"nın hələ tam tətbiq olunmamış yüngül versiyasını qəbul etdi. Ancaq bilirsiniz ki, onun qüvvəyə minməsinə baxmayaraq, xaricdən maliyyə alan varlı və iri QHT-lər reyestrdə qeydə alınmayıb. Buna görə də biz bunun əvəzində yeni Amerikanın FARA qanununun hazırkı variantının birbaşa surətini qəbul edəcəyik və onun tam icrasını təmin edəcəyik"*, - deyə Mdinaradze qeyd edib.

Onun sözlərinə görə, paralel olaraq hökumət ictimai təşkilatların təşəbbüslərini maliyyələşdirmək üçün fond yaradacaq və bunun üçün "Qrantlar haqqında" qanuna düzəliş ediləcək:

Mdinaradze əlavə edib ki, hakim partiya Britaniya modelinə uyğun **"Media Qanunu"**nun hazırlanmasına başlayacaq.

Onun sözlərinə görə, qanunla medianın obyektivliyi və jurnalist etikası standartları müəyyən ediləcək:

*"Xarici mənbələrdən media orqanlarının maliyyələşdirilməsi məhdudlaşdırılacaq. Təbii ki, bu, kommersiya reklamlarından və digər bu kimi gəlirlərdən əldə edilən vəsaitlərə aid olmayacaq"*, – deyə Mamuka Mdinaradze bildirib.

## BAŞ NAZİR: "GÜRCÜSTANDA "NÜRNBERQ PROSESİ" LAZIMDIR"

***Gürcüstanın öz qaranlıq keçmişinə qayıtmaması üçün bir növ "Nürnberq prosesi" lazımdır.***

Bu barədə Baş nazir İrakli Kobaxidze jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Gürcüstan heç vaxt 2004-2012-ci illərdəki öz qaranlıq keçmişinə qayıtmamalıdır:

*"Biz ölkəmizi sona qədər geri almalıyıq, bunun üçün hər şeyin öz adı - cinayətkarın cinayətkar, xarici agentin isə xarici agent çağırılması lazımdır. Əslində bu cinayətlər məlumdur; bu, həbsxanalarda insanların qətli, işgəncələr, biznes reketliyi, 2008-ci ildəki hərbi cinayətlərdir. Bütün bunlar bizə məlumdur, lakin hər şeyi bir daha aydınlaşdırmaq lazımdır ki, ictimaiyyətə hər şey xatırladılsın.*

*Bizə bir növ "Nürnberq prosesi" lazımdır ki, Gürcüstan heç vaxt 2004-2012-ci illərdəki öz qaranlıq keçmişinə qayıtmasın. Hesab edirəm ki, bütün hər şey araşdırılacaq. Heç kim ölkəmizi 2012-ci ildən əvvəl fəaliyyət göstərən rejimə qaytarmamalıdır. Bu, kənardan idarə olunan qanlı rejim idi, onun cinayətləri dəqiqliklə Parlament İstintaq Komissiyası çərçivəsində araşdırılacaq"*,- deyə Baş nazir qeyd edib.

## QAZAXISTAN VƏ GÜRCÜSTAN QAZAX NEFTİNİN BTC İLƏ NƏQLİ HƏCMİNİ ARTIRMAĞI HƏDƏFLƏYİB

***Ötən il Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə 1,4 milyon ton qazax nefti daşınıb, indi əsas hədəf xammalın nəql həcmini mərhələli şəkildə 2,2 milyon tona qaldırmaqdır.***

Qazaxıstan baş nazirinin mətbuat xidmətinə istinadən xəbər verilir ki, bu haqda Qazaxıstanın baş naziri Oljas Bektenovla Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında keçirilən görüşdə danışılıb.

Görüşün gedişində başlıca olaraq ticari-iqtisadi əlaqələrin inkişafı, nəqliyyat və logistika sahələrində əməkdaşlığın genişləndirilməsi, neft və neft məhsullarının daşınması, rəqəmsal texnologiyalar, kənd təsərrüfatı, turizm və başqa sahələrdə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

*"Bu, mənim iqtisadi və mədəni əməkdaşlığın gücləndirilməsinə hədəflənmiş ilk və sözsüz ki, vacib, rəsmi Qazaxıstan səfərimdir. Bu gün bizim dövlətlər əməkdaşlığın müxtəlif istiqamətlərində böyük nailiyyətlər əldə edib. Biz Qazaxıstanla hərtərəfli tərəfdaşlığın bundan sonra da inkişaf etdirilməsində maraqlıyıq"*, - deyə İrakli Kobaxidze bildirib.

Bundan başqa, baş nazirlər neft və neft məhsullarının dünya bazarlarına daşınması ilə bağlı ölkələr arasındakı əməkdaşlıq məsələlərini də müza-kirə ediblər.

## 49 MÜXALİF DEPUTATIN MANDATINA XİTAM VERİLİB




***Gürcüstan Parlamenti 49 müxalif deputatın mandatına xitam verib.***

Qərar bir neçə gün əvvəl parlamentin sessiyasında keçirilən səsvermədə qəbul edilib.

Səsvermənin nəticəsini deputatlar alqışlarla qarşılayıblar. Parlamentdə müxalif partiyalardan yalnız sabiq Baş nazir Qiorqi Qaxarianın "Gürcüstan naminə" partiyasının 12 mandatı qalıb. Bununla da 150 yerlik Gürcüstan parlamentində yalnız 101 deputat qalıb.

Qeyd edək ki, 26 oktyabr seçkilərinin nəticələrini tanımadığını bəyan edən müxalifət koalisiyaları parlamenti legitim hesab etmədiklərini bildiriblər.

## BAŞ NAZİR İRAKLİ KOBAXİDZE HƏMKARI NİKOL PAŞİNYANLA REGİONAL MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİBLƏR



***Gürcüstanın Baş naziri İrakli Kobaxidze Ermənistana səfəri çərçivəsində bu ölkənin baş naziri Nikol Paşinyanla görüşüb.*** Bu barədə hökumət administrasiyası məlumat yayıb. Məlumata əsasən, təkbətək görüşdə tərəflər iki ölkənin strateji tərəfdaşlığının əhəmiyyətini vurğulayaraq, İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 14-cü sessiyası çərçivəsində müzakirə olunacaq məsələləri müzakirə ediblər. Görüş zamanı, regiondakı vəziyyətə və sülh prosesinin gedişinə diqqət yetirilib.

İrakli Kobaxidze Gürcüstan hökumətinin dialoqu təşviq etməyə və regionda sabitliyin və sülhün təmin olunmasına töhfə verməyə hazır olduğunu bir daha təsdiqləyib və bildirib ki, bu, ölkələrin gələcək inkişafı üçün zəruridir. Tərəflər, həmçinin iki ölkə arasında müxtəlif formatlarda yüksək səviyyəli dialoqun və bir çox sahələrdə sıx əməkdaşlığın ikitərəfli münasibətlərin daha da dərinləşməsinə töhfə verdiyini vurğuladılar. Görüşdə Hökumətlərarası İqtisadi Komissiyanın növbəti iclasının iki ölkə arasında ticarət - iqtisadi əlaqələrin daha da genişlənməsinə və bu istiqamətdə mövcud potensialdan tam istifadə olunmasına töhfə verəcəyi qeyd edilib. Baş nazir İrakli Kobaxidze erməni həmkarını Gürcüstana rəsmi səfərə dəvət edib.

## ŞALVA PAPUAŞVİLİ: ABŞ-da BAŞ VERƏNLƏR DİGƏR ÖLKƏLƏRİN GÜRCÜSTANDA XƏRCLƏDİYİ PULUN İCTİMAİYYƏTƏ AÇIQLAMASINI ZƏRURİ EDİR

***"ABŞ-də baş verən proseslər, hər bir səfirliyin öz ölkəsindən seçkilərə və daxili siyasi proseslərə xərclənən hər bir senti ictimaiyyətə açıqlamasını zəruri edir - bunun üçün nümunə Brüssel olmalıdır."***

Bu barədə parlamentin spikeri Şalva Papuaşvili yazıb.

O, qeyd edib ki, ABŞ-nin yeni administrasiyası, xarici yardımın kölgəsində amerikalıların pulu ilə "yaradılmış ideologiyaların xalqa qəbul etdirilməsi", senzura, daxili siyasətə müdaxilə, hökumətlərin devrilməsi və s. maliyyələşdirildiyini qəbul edir. Bu isə avtomatik olaraq digər ölkələrin Gürcüstanda pul xərcləməsinin vicdanlı olub-olmaması ilə bağlı şübhə yaradır.

*"ABŞ-nin yeni administrasiyası qəbul edir ki, xarici yardımın kölgəsində amerikalıların pulu ilə yaradılmış ideologiyaların xalqa qəbul etdirilməsi, senzura, daxili siyasətə müdaxilə, hökumətlərin devrilməsi və s. maliyyələşdirilib. Ən böyük donor ölkə bunu qəbul edəndə, bu, avtomatik olaraq digər ölkələrin Gürcüstanda pul xərcləməsinin vicdanlı olub-olmamasını sual altına alır. İndi isə növbə digər donor ölkələrdədir. Onlar öz vergi ödəyicilərinin pulunun nə üçün xərcləndiyini yoxlamaq məcburiyyətindədirlər.*



*Bu ölkələrin müxalifəti və qeyri-hökumət təşkilatları da bu məsələyə xüsusilə maraq göstərməlidir. Nümunə isə Brüssel olmalıdır. 2023-cü ilin payızında mən Avropa İttifaqının səfirinə məktubla müraciət etdim ki, o, Avropa Demokratiyası Fondu (EED) tərəfindən verilən maliyyənin ictimaiyyətə açıqlanmasını təmin etsin. Bir neçə aylıq düşüncədən sonra səfir tərəfindən EED-nin müstəqil bir təşkilat olduğu bəhanəsiylə cavab aldım. Əlbəttə ki, bu yalnız bəhanə idi. EED tamamilə Brüssel və üzv ölkələrin büdcəsindən maliyyələşir və onu bir neçə məşhur Avropa Parlamentinin üzvü idarə edir.*

*2024-cü il seçkiləri ilə bağlı ayrıca məsələ, Brüsseldən və digər paytaxtlardan verilən vəsaitlərin qeyri-qanuni xərclənməsidir. Hamımızın yadındadır ki, xarici təzyiq səbəbindən, Antikorrupsiya Bürosuna, seçkilərdə iştirak edən siyasi "NGO"-ların ardında müəyyən xarici donorların izi ortaya çıxdığı üçün öz araşdırmalarını dayandırmağa məcbur oldular"*,- deyə Papuaşvili yazıb.

## MASK USAİD-in LƏĞVİ PROSESİNİN BAŞLANDIĞINI BİLDİRİB



***ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) ləğv olunması prosesi gedir.***

Bu barədə Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentini (DOGE) idarə edən İlon Mask "X" sosial şəbəkəsində paylaşım edib.

*"Biz USAID-in ləğvi prosesindəyik"*, - deyə o bildirib.

İ.Maskın sözlərinə görə, USAID bərpa oluna bilməz: *"Bu qurdlu alma deyil, sadəcə qurd topasıdır... Alma yoxdur, ona görə də hər şeydən xilas olmaq lazımdır".*

## QƏTƏRİN BAŞ NAZİRİ QƏZZADA ATƏŞKƏSİN İKİNCİ MƏRHƏLƏSİNƏ DAİR DANIŞIQLARA ÇAĞIRIB

***Qətər hökumətinin başçısı, xarici işlər naziri Məhəmməd bin Əbdül Rəhman Əl Tani İsrail və Fələstinin HƏMAS hərəkatını Qəzza zolağında atəşkəs razılaşmasının icrasının ikinci mərhələsinin təfərrüatlarını müzakirə etmək üçün danışıqlara çağırıb.*** Bunu o, Türkiyənin xarici işlər naziri Hakan Fidanla birlikdə keçirdiyi mətbuat konfransında deyib. Əl Tani qeyd edib ki, nümayəndə heyətlərinin görüş yeri hələ müəyyən edilməyib: *"Biz sazişdə nəzərdə tutulduğu kimi, ikinci mərhələ üzrə danışıqların dərhal başlanmasını tələb edirik. Razılaşmalara*



*əsasən, ikinci mərhələ üzrə danışıqlar başlamalıdır. Artıq danışıqların gündəliyini müəyyən etmək üçün tərəflərlə qarşılıqlı fəaliyyətə başlamışıq. Ümid edirik ki, yaxın bir neçə gündə müəyyən fəallıq görəcəyik. Atəşkəsin 42-ci gününə qədər razılığa gəlmək üçün indi başlamağımız çox vacibdir"*, - deyə Qətərin Baş naziri bildirib. Qeyd edək ki, fevralın 1-də İsrailin Baş naziri Benyamin Netanyahunun ofisi Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiven Vitkoff ilə Qəzza razılaşmasının növbəti mərhələsi üzrə danışıqlar barədə razılığa gəldiyini bildirib.

## Sitat guşəsi



"Təəssüf ki, Qərbdə, tərəfdaş ölkələrimizdə vətəndaşların məlumatlandırılması zəif aparılır. Mənim İsveçrədəki təcrübəmdən bilirəm ki, vətəndaşa alternativ fikir lazımdır ki, yalnız bir mənbəyə güvənməsin. Bu, Avropa dəyəridir".

**Mixeil Kaveliaşvili,**
**Gürcüstan Prezidenti.**



"Biz şəffaflıq haqqında qanun qəbul etmişik, amma şəffaflıqla bağlı bizdən çox başqaları narahatdır. Bununla yanaşı, Trampın administrasiyası, ölkədə vəziyyəti pozmağa və iğtişaşlar yaratmağa yönəlik bütün maliyyə dəstəklərinin dayandırılması qərarını qəbul edib".

***İrakli Kobaxidze,***
***Gürcüstanın Baş naziri.***



"Gürcü xainlərlə, ölkə düşmənləri ilə birlikdə Ukrayna nümayəndə heyətinin üzvləri də işləyirdi. Bu, bir daha sübut edir ki, proseslər xaricdən idarə olunur. Bu xırda radikalların ölkə daxilində himayədarları var. Onlar bu ölkəyə məxsus deyillər, Gürcüstanın maraqlarına xidmət etmirlər. Onlar həmişə ölkəyə, vətənimizə və gürcü xalqına necə zərər vurmağı düşünürdülər".

***Kaxa Kaladze,***
***Tbilisinin meri.***



"Parlament Assambleyası qismən razılaşma deyil, bu, iştirakı seçim deyil öhdəlik olan nizamnamə orqanıdır. Etimadnamələr qəbul edildiyindən onlar assambleyada olmalıdırlar. Bu onların öhdəliyidir".

***Teodoros Rusopolos,***
***AŞPA-nın prezidenti.***



"Qəzza zolağında əldə olunan atəşkəs razılaşmasının şərtlərindən biri fələstinli məhbusların azadlığa buraxıldıqdan sonra Fələstin torpaqlarında qalmaması ilə bağlıdır. Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, digər ölkələrlə birlikdə azad edilmiş fələstinliləri qəbul etməyə hazırıq. Sazişin həyata keçirilməsinə digər ölkələr də öz töhfələrini verəcəklər".

***Hakan Fidan,***
***Türkiyənin xarici işlər naziri.***



"Gürcüstan müxalifətini və radikal fəallarını mütəmadi olaraq Avropa İttifaqı və ABŞ-nin xarici fondları maliyyələşdirir. Gürcüstanda inqilab cəhdlərinin hamısı bu və ya digər xarici donor təşkilatları tərəfindən dəstəklənir".

***Nino Qilosani,***
***Gürcüstan Parlamentinin sədr müavini.***

## REGİON XƏBƏRLƏRİ

### Dmanisi: "KƏNDƏ DƏSTƏK" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ LAYİHƏLƏRİN SEÇİLMƏSİNƏ BAŞLANILIB



***Dmanisi Bələdiyyəsinin meri Koba Muradaşvili, mer müavinləri, Şəhər Şurasının sədri Paata Kuliaşvili və Şəhər Şurasının üzvləri kəndlərin əhalisi ilə görüşüblər.***

Vətəndaşlarla bələdiyyə rəhbərləri prioritet problemləri birgə müzakirə edib, onların həlli yollarını müəyyənləşdiriblər.

"Kəndə Dəstək" Proqramı çərçivəsində keçirilən görüşlərdə əhali aşağıdakı prioritetləri müəyyən edib: xarici işıqlandırmanın, yol infrastrukturunun, ictimai yerlərin abadlaşdırılması.

Vətəndaşlar tərəfindən seçilmiş layihələr təsdiq olunmaq üçün Bələdiyyə Şurasına təqdim olunacaq.

"Kəndə Dəstək" Proqramı çərçivəsində bələdiyyənin bütün kəndlərində əhali ilə görüşlər və məsləhətləşmələr keçiriləcək. 2025-ci ildə Dmanisi Bələdiyyəsinə yuxarıda qeyd olunan proqramın həyata keçirilməsi üçün 686.000.0 lari ayrılıb.

### Telavi: ƏHALİ İLƏ GÖRÜŞLƏRƏ BAŞLANILIB

***Fevralın 3-dən fevralın 13-dək Telavi Bələdiyyəsində "Kəndə Dəstək" Layihəsi çərçivəsində əhali ilə görüşlər başlayıb.***

Seçilmiş layihələrin səmərəliliyini və uzunmüddətli faydalarını artırmaq məqsədilə bələdiyyənin meri Levan Andriaşvilinin qərarı ilə proqramın büdcəsi əvvəlki illərdə olduğu kimi, 100% artırılaraq, 956 min lari təşkil edib.



Əhali ilə məsləhətləşmələr əsasında və onların qərarlarına uyğun olaraq müxtəlif infrastruktur layihələri: içməli su sistemlərinin, xarici işıqlandırmanın, suvarma sistemlərinin, drenaj kanallarının, yolların, səkilərin və digər yol infrastrukturunun, meydanların, idman qurğularının və s. quraşdırılması/bərpası maliyyələşdiriləcək.

Görüşlər Akura, Vanta və Buşeti, Kvemo Xodaşeni, Tsinandali və Kondoli kəndlərində keçirilir.

### Marneuli: AŞAĞI SARAL KƏNDİNİN DAXİLİ YOLLARI ASFALTLANACAQ

***Marneuli Meriyası Aşağı Saral kəndində daxili yolların bərpası üçün 1 165 012 lari dəyərində tender elan edib.***



Sözügedən işlərin həyata keçirilməsi üçün tender 27 yanvar tarixində elan edilib.

Tenderdə iştirak etmək istəyən namizədlər 14 fevral tarixindən 19 fevraladək təkliflərini təqdim edə bilərlər.

### TAMARİSİ KƏNDİNİN YOLLARININ TƏMİRİ ÜÇÜN BEŞ MİLYON LARİDƏN ÇOX PUL XƏRCLƏNƏCƏK



***Marneuli Bələdiyyəsinin yerli hökuməti Tamarisi kəndinə giriş yolunun bərpası üçün növbəti tender elan edib.***

Sözügedən işlərin həyata keçirilməsi üçün tender 27 yanvar tarixində elan edilib.

Tender sənədinə əsasən, layihə çərçivəsində mövcud yol asfalt-betondur, müəyyən yerlərdə çuxurlar, çatlar və qabartılar mövcuddur. Yolda əsaslı şəkildə asfalt-beton örtüyünün ikiqat tikintisi aparılacaq.

Sözügedən tenderdə iştirak etmək istəyən namizədlər 13 fevral tarixindən 18 fevraladək təkliflərini təqdim edə bilərlər.

## BEYNƏLXALQ HƏYAT

### NATO-nun BAŞ KATİBİ MÜHARİBƏYƏ HAZIRLIĞA ÇAĞIRIB



***NATO-nun Baş katibi Mark Rutte Avropa ölkələrini müdafiə xərclərini artırmağa və müharibəyə hazırlaşmağa çağırıb.***

O, bu barədə "Bild" qəzetinə müsahibəsində deyib.

M.Rutte Berlini hərbi və müdafiə sənayesində daha çox xərcləməyə və istehsal etməyə çağırıb. Onun sözlərinə görə, bu məsələ yaxın aylarda Avropanın bir çox ölkələrində müzakirə mövzusu olacaq.

*"Mən sizə çox açıq deyirəm: biz müharibəyə hazırlaşmalıyıq. Bu, müharibədən qaçmağın ən yaxşı yoludur"*,- deyə Rutte bildirib.

Bir müddət əvvəl amerikalı aparıcı Taker Karlson NATO-nun aktuallığını itirdiyini bildirmişdi.

### TÜRKİYƏNİ ÖTƏN İL 62 MİLYONDAN ÇOX TURİST ZİYARƏT EDİB

***Türkiyəni ötən il 62 milyon 269 min 890 turist ziyarət edib ki, bu da 2023-cü illə müqayisədə 9.8 faiz çoxdur.***



"Turizm Proje Dergisi"nə istinadən xəbər verilir ki, Türkiyə 2024-cü ildə turizmdən 61.1 milyard dollar gəlir əldə edib. Bu da əvvəlki illə müqayisədə 8.3 faiz çoxdur.

Türkiyəyə ən çox turist Rusiya, Almaniya və Böyük Britaniyadan gəlib.

Türkiyəyə gələn beynəlxalq turistlər ölkədə orta hesabla 10.7 gün qalıblar və hər bir turistdən əldə edilən gəlir 972 dollar olub.

### HƏQİQƏT İLLƏR SONRA ÜZƏ ÇIXDI: MİLYONLARI ÖLDÜRƏN COVİD-19 ƏSLİNDƏ BELƏ YAYILIBMIŞ

***Minlərlə insanın ölümünə səbəb olan COVİD-19 labaratoriyada aparılan araşdırma zamanı "ehtiyatsızlıqdan" yayılıbmış.***

Koronavirusla bağlı həqiqətlər illər sonra üzə çıxıb.

"Tesla", "SpaceX", "Neuralink" və "The Boring Company" kimi yüksək texnologiyalı şirkətlərin təsisçisi və rəhbəri Trampın müttəfiqi İlon Musk bildirib ki, ABŞ vətəndaşlarının vergi pulları ilə USAID xaricdə bioloji silahlar üzrə tədqiqat laboratoriyalarını maliyyələşdirib. Onun dediyinə görə COVID-19 pandemiyası bu cür tədqiqatlardan birinin nəticəsidir.

Mask sosial şəbəkədə bu barədə yazıb: "Bilirdinizmi ki, USAID, sizin vergi pulunuzla, milyonlarla insanın ölümünə səbəb olan COVID-19 da daxil olmaqla bioloji silah tədqiqatlarını maliyyələşdirib?"

USAID-in Peter Daszakın rəhbərlik etdiyi "EcoHealth Alliance" ilə "PREDICT" proqramı üzərində işləməsi iddiaları daha da gücləndirir. Bu proqram 1,200 yeni virusun aşkarlanmasına, dünya üzrə 5,000 nəfərin xəstəlikləri müəyyən etmək bacarığının artırılmasına və 60 tədqiqat laboratoriyasının inkişaf etdirilməsinə kömək edib. 2004-2022 illəri arasında "EcoHealth Alliance" USAID-dən 53 milyon dollar artıq maliyyə dəstəyi alıb.

Mənbələr Peter Daszakın Vuhandakı laboratoriyada tədqiqatlarla bağlı əlaqələrini və bu əlaqələrin COVID-19-un laboratoriyadan sızması nəticəsində yayıldığını inkar etməyə çalışdığını da ortaya qoyur. Hətta Daszak bu iddiaları tamamilə rədd etmək məqsədilə gücünü və təsirini istifadə edərək "laboratoriya sızıntısını" təkzib etmişdir. Son aylarda isə ABŞ hökumətinin mənbələri və müxtəlif təşkilatlar COVID-19-un Uhandakı laboratoriya sızmasından qaynaqlanmasının təsdiq edib.

Bu iddialar pandemiyanın yaranmasının arxasında dayanan amillər haqqında ətraflı araşdırmaların və sualların müzakirə edilməsinə səbəb olub. Bu məsələlər ABŞ hökumətinin gələcək siyasətini və beynəlxalq təşkilatlarla olan əməkdaşlıqlarını yenidən qiymətləndirmək zərurətini ortaya qoyur.

ABŞ-nin yeni prezidenti Donald Tramp administrasiyası 64 illik agentliyi ( USAID ) ləğv etməyi planlaşdırır. "USAID"in "X" hesabı şənbə günü silinib və onun vebsaytı da o vaxtdan bəri bağlıdır. Bazar ertəsindən etibarən onlarla USAID əməkdaşının işdən azad edildiyi barədə məlumat verilib. Gecə yarısı, bir neçə USAID işçisi rəsmi e-poçtlarına daxil ola bilmədiklərini bildirməyə başlayıb, bu da daha çox USAID əməkdaşının işdən çıxarılacağına dair narahatlıqları artırıb.



Xatırladaq ki, COVID-19 koronavirusun yaratdığı infeksiyadır və ilk dəfə 2019-cu ilin dekabrında Çinin Uhan şəhərində aşkarlanmışdır. Virus 2019-n COV-u (yeni koronavirus) olaraq tanınır və dünyada milyonlarla insanın xəstələnməsinə və bir çox ölümə səbəb olmuşdur. COVID-19, əsasən insanlara tənəffüs yolları vasitəsilə yayılıb, xüsusən öksürək, asqırıq və ya yaxın təmas vasitəsilə...

COVID-19-un əlamətləri arasında yüksək hərarət, öksürək, nəfəs darlığı və yorğunluq yer alır. Bəzi hallarda isə xəstələr hər hansı əlamət göstərməyib, bu da virusun yayılmasını çətinləşdirib. Çox sayda müalicə üsulları, dərmanlar və vaksinlər inkişaf etdirilsə də, pandemiya bir çox ölkədə uzun müddət davam edib.

Pandemiya dövründə dünyada iqtisadiyyat, sosial həyat və səhiyyə sistemləri ciddi şəkildə təsirlənib. COVID-19 ilə mübarizə məqsədilə karantin tədbirləri, maska taxmaq, sosial məsafə saxlamaq və vaksinasiya proqramları tətbiq olunub.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az təhlilinin işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**GÖZƏLCƏ** *sif.* Çox gözəl, çox yaxşı, qəşəngcə. *Gözəlcə uşaq. Gözəlcə bağça. Gözəlcə səsi var.*

*Bir sərin, saf səhər, gözəlcə hava,*
*Bürünüb yamyaşıl çəmən, səhra!*
A. Şaiq.

//Zərf mənasında. *Gözəlcə geyinmək. Gözəlcə nitq dedi.–Soba otağı qız-dırmışdı, elektrik ətrafı gözəlcə işıqlandırmışdı.*
Çəmənzəminli.

**GÖZƏLCƏSİNƏ** *zərf* Çox gözəl, çox yaxşı. *Mən Məşədi Kazımağanı gözəlcəsinə anlayırdım.*
M. S. Ordubadi.

**GÖZƏLLƏNDİRMƏK** *f.* Gözəl etmək, gözəllik vermək, bəzəmək, qəşəngləndirmək. *Evi bəzəyib gözəlləndirmək. Gül dibçəkləri otağı daha da gözəllən-dirdi.*

**GÖZƏLLİK** *is.* Gözəl adam və ya şeyin halı: qəşənglik, gözəşirinlik.
*Mənim tanrım gözəllikdir, sevgidir.*
H. Cavid.

**GÖZƏMƏK** *f.* Toxunma şeylərin yırtılmış, deşilmiş yerini yenidən toxumaq, tikmək, yamamaq. *Corabları gözəmək. Torbanı gözəmək. Şalvarın yırtığını gözəmək.*
*Vadila ... dizi üstünə yığdığı qara atlasdan ibarət bir yığın tikə-paraları bir-birinə gözəməyə başlamışdı...*
Ə. Məmmədxanlı.

**GÖZƏŞİRİN** *sif.* Gözə xoş gələn, qa-nışirin, yapışıqlı, xoşagələn, sevimli. *Gözəşirin uşaq.*
*Qumar "qəhrəmanları" gözəşirin bir gənci əhatə edib min cür hiylə ilə qumara qoşardılar.*
H. Sarabski.

**GÖZƏŞİRİNLİK** *is.* Gözəşirin adamın və ya şeyin xüsusiyyəti; yapışıqlılıq, qanışirinlik, sevimlilik.

**GÖZƏTÇİ** *is.* Qarovulçu, keşikçi, mühafizəçi, bəkçi, baxıcı. *Mağaza gözətçisi. –Osman gözətçidir oyankı dikdə.*
H. K. Sanılı.

**GÖZƏYARI** *zərf* Təxmini, təqribi, çəkmədən və ya ölçmədən gözlə müəyyən edilərək. *Məsafəni gözəyarı təyin etmək.*
*Borunun süratinə zənlə baxıb şagirdlərinin işinə gözəyarı qiymət qoyan usta ... razı halda gülümsəyirdi.*
M. Hüseyn.

**GÖZGÖRƏSİ** *zərf* Göz görə-görə, açıq-açığına, aşkarda, açıq-aşkar. [Ələmdar:] *Yoxsa görün günün-günorta çağında adam da ... belə gözgörəsi özünü soydurarmı?*
S. Rəhimov.

**GÖZ-GÖZƏ** *zərf* 1. Üzbəüz, üz-üzə, qabaq-qabağa, qarşı-qarşıya.
*Məni nahar yeməyinə saxlamaq istədisə də, mən casuslarla göz-gözə oturub nahar etmək istəmədim.*
M. S. Ordubadi.

**Göz-gözə vuraraq (vurub)** – xəlvəti, gizlincə, başqaları görmədən.
*İki gündən bir Tutu su gətirmək bəhanəsilə bulağa gedir, göz-gözə vuraraq adamlardan oğurlanıb birbaş Mürsəlin yanına gəlir.*
Ə. Vəliyev.

**GÖZ-QAŞ** *top.* Gözlər və qaşlar bir yerdə. *Göz-qaşı qara qız.*

*Dağların başı qardır,*
*Üstündə daşı vardır,*
*Burdan keçən gözəlin,*
*Əcəb göz-qaşı vardır.*
(Bayatı).

[Qurban:] *Mən kimdən əskiyəm? Bu mənim qəddü qamətim, bu mənim göz-qaşım.*
Ə. Haqverdiyev.

**Göz-qaş atmaq** – *bax* **göz-qaş etmək (eləmək).**
*Hər gün bir "afətə" göz-qaş atdı o,*
*Mənsəbin gücünə at oynatdı o...*
B. Vahabzadə.

**Göz-qaş etmək (eləmək)** – göz və qaşlarının hərəkətilə işarə etmək, bildirmək, xəbər vermək. [Nazlı:] *Bizdə belədir.*
*Elə ki oğlan ürəyinə yatdı, əvvəlcə ona göz-qaş elə.*
Ə. Məmmədxanlı.

*[Rəşid:] Anam mənə göz-qaş eləyib, çardağın dalına çağırdı.*
İ. Hüseynov.

**Göz-qaşını oynatmaq**–gözlərini, qaşlarını, üz əzələlərini tərpədərək ədabazlıq etmək, oyun çıxartmaq.

**GÖZ-QULAQ göz-qulaq olmaq** – muğayat olmaq, nəzarət etmək, baxmaq, gözdən qoymamaq. *Uşaqdan göz-qulaq ol.*
[Hacı Murad:] *Sənin [işin] odur ki, göz-qulaq olasan, o nökər şeydən-zaddan oğurlamasın.*
S. S. Axundov

**Göz(də)-qulaqda olmaq** – bütün diqqətilə baxmaq, ayıq olmaq, gözdən qaçırmamaq.
[Pəri:] *İndi mən gərək həmişə gözdə-qulaqda olam.*
Ə. Məmmədxanlı.

*Teymur həmişə gözdə-qulaqda olur, elə bil nə isə axtarırdı.*
H. Seyidbəyli.

**GÖZLƏNİLMƏZ** *sif.* Gözlənilmədən baş verən, xəbərsiz, nagahani, əvvəlcədən nəzərdə tutulmayan. *Gözlənilməz təsadüf.*
*Günlərin birində Turab gözlənilməz bir hadisənin şahidi oldu.*
M. Hüseyn.

**GÖZLƏŞMƏ** "Gözləşmək"dən *f. is.* *Tanışlığın ən ilk mərhələsi üçün təbii olan gözləşmə artır, bir-birinə yaxın oturanlar arasında isə söhbət başlayırdı.*
Ə. Əbülhəsən.

**GÖZLƏŞMƏK** *qarş.* 1. Başqalarına hiss etdirmədən bir-birinə baxaraq göz vurmaq, gözlə işarə etmək. *Bir-birilə gözləşmək.*
*Bəylər himləşib gözləşirlər.*
Ü. Hacıbəyov.

*Onlar bir-birilə bic-bic gözləşirdilər.*
S. Rəhimov.

2. Bir-birinin gözünün içinə baxmaq, gözünü dikmək. *Ana və bala gözləşdilər.*
[İsfəndiyar] *hərəkətsiz qalıb məstan pişiklə xeyli müddət gözləşdi.*
M. Hüseyn.

**GÖZLÜ** *sif.* Gözü olan, görən.
*Şəfa tapıb qurtarmasın azardan,*
*Heç gözlülər onun dərdin görməsin.*
Aşıq Ələsgər.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

**საავადმყოფოში** (Saavadmğoposi) **- Xəstəxanada**

**გიორგი საავადმყოფოში მოხვდა.** (Qiorqi saavadmğoposi moxvda.) **– Qiorqi xəstəxanaya düşdü.**

**ის თავს ცუდად გრძნობდა და ექიმთან მივიდა.** (İs tavs tsudad qrdzṇobda da ekimṭan mivida.) **– O, özünü pis hiss edirdi və həkimə getdi.**

**ექიმმა ჰკითხა: რა გაწუხებთ?** (Ekimma hkiṭxa: Ra qaṭsuxebṭ?) **– Həkim soruşdu: "Sizi nə narahat edir?"**

**გიორგიმ უპასუხა: თავის ტკივილი და სიცხე მაქვს.** (Qiorqim upasuxa: Tavis tkivili da siṭsxe makvs.) **– Qiorqi cavab verdi: "Baş ağrım və qızdırmam var."**

**ექიმმა გაუსინჯა პულსი.** (Ekimma qausinca pulsi.) **– Həkim nəbzini yoxladı.**

**შემდეგ მას წნევა გაუზომა.** (Şemdeq mas tsneva qauzoma.) **– Sonra onun təzyiqini ölçdü.**

**თქვენი ტემპერატურა კი 38 გრადუსია.** (Tqveni ṭemperaṭura ki 38 qraḍusia.) **– Sizin temperaturunuz isə 38 dərəcədir.**

**ალბათ, ვირუსია.** (Albaṭ, virusia.) **– Yəqin ki, bu, virusdur.**

**ექიმმა გიორგის დანიშნულება მისცა.** (Ekimma Qiorqis ḍanişnuleba misṭsa.) **– Həkim Qiorqiyə resept yazdı.**

**უნდა მიიღოთ წამლები და დაისვენოთ.** (Unda miiğoṭ tsamblebi da ḍaisvenoṭ.) **– Siz dərmanlar qəbul etməli və dincəlməlisiniz.**

**გიორგი აფთიაქში წავიდა და წამლები იყიდა.** (Qiorqi apṭiakshi tsavida da tsamblebi iğida.) **– Qiorqi aptekə getdi və dərmanları aldı.**

**რამდენიმე დღეში მას უკეთ იგრძნობდა.** (Ramdenime dğeşi mas uḳeṭ iqrdzṇobda.) **– Bir neçə günə o, özünü daha yaxşı hiss etdi.**

**გიორგიმ გადაწყვიტა, რომ მომავალში უფრო მეტად იზრუნებდა საკუთარ ჯანმრთელობაზე.** (Qiorqim qadaṭsğviṭa, rom momavalşi upro meṭaḍ izrunebḍa saquṭar canmrṭelobaze.) **– Qiorqi qərara aldı ki, gələcəkdə sağlamlığına daha çox diqqət yetirəcək.**

**მან დაიწყო ჯანსაღი საკვების მიღება და მეტი სეირნობა.** (Man daitsğo cansaği sakvebis miğeba da meṭi seiṛnoba.) **– O, sağlam qidalanmağa və daha çox gəzməyə başladı.**

**ასევე, რეგულარულად გაიკეთა სამედიცინო შემოწმება.** (Aseve, reqularuladḍ qaikeṭa sameḍiṭsino şemocmeba.) **– Həmçinin, mütəmadi olaraq tibbi müayinədən keçdi.**

**გიორგიმ გააცნობიერა, რომ ჯანმრთელობა ყველაზე ძვირფასია.** (Qiorqim qaatsnobieṛa, rom canmrṭeloba ğvelaze dzvirpasia.) **– Qiorqi anladı ki, sağlamlıq ən dəyərli nemətdir.**

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

24 yanvar 2025-ci il **"SAKARTVELOS RESPUBLİKA"**

### Sosial cəhətdən həssas insanlar üçün yeni evlər

"Zuqdididə sosial cəhətdən həssas ailələr üçün 9 evin tikintisi davam edir" – bu məlumatı Sameqrelo-Zemo Svaneti bölgə müvəkkilinin administrasiyası yayıb.

Məlumata görə, Sameqrelo-Zemo Svaneti dövlət nümayəndəsi David Verava və Zuqdidi meri Mamuka Tsokri müavinləri ilə birlikdə Ruxi və Axali Abastumanidə davam edən sosial evlərin tikintisi prosesi ilə tanış olublar.

"Nikoloz Norakidze və Dedika Kvaratsxelianın çoxuşaqlı ailələri tezliklə Zuqdidi meriyası tərəfindən tikilmiş evlərdə yaşayacaqlar. Hazırda Meriya 9 ev tikir. Sosial evlərin tikintisi Zuqdidi meriyasının eksklüziv layihəsidir və icrasına bələdiyyə tərəfindən 2015-ci ildə başlanılıb. "2015-ci ildən indiyədək ağır sosial şəraitdə yaşayan 160 ailəyə yeni evlər tikilib", - deyə məlumatda bildirilir.

31 yanvar 2025-ci il

### "Gürcü Arzusu" və Tea Tsulukiani o qəbildəndirlər ki, geri çəkilməyə öyrəşməyiblər, xüsusilə haqlı olduğunda

Bizim üçün səlahiyyətin tanınması böyük əhəmiyyət kəsb edirdi, çünki əgər biz seçilmiriksə, yalan danışırıqsa, həyatda 1,2 milyon insan yoxdursa və bunu biz uydurmuşuqsa, bir şəxslə necə danışa bilərsən? Belə bir parlamentə, onlara iclaslarda çıxış etmək hüququ, sonra da tanınmayan səlahiyyətlər verin. Deməli, əslində heç bir problem olmayıb. Üstəlik, müxtəlif görüşlərdə hamı bizə deyirdi ki, seçkilərin saxtalaşdırılmasına dair sübutlar, yəni bizim ekstremist müxalifətin təqdim etdiyi sübutlar onlara çatmayıb, amma sual işarələri və bu qədər hay-küy olduğu üçün yeni seçkilərin keçirilməsi daha yaxşı olar. İnsaf naminə deməliyəm ki, bircə nəfər, "İPİP"in nümayəndəsi, çox nüfuzlu bir şəxs var idi və mənə deyirdi ki, heç bir dəlil yoxdur, yəni saxta seçkilərin keçirildiyinə inanmırdı. Bu, onun tərəfindən səmimi və dürüst bir ifadə idi. Heç bir dəlil olmadığı üçün hamı səssizcə inanır ki, bizim parlamentin legitimlik problemi yoxdur, hamı hesab edir ki, bu qədər hay-küy salıb, yeni seçkilər keçirməliyik!

Bu, belə olmur. Bizim ölkə oyuncaq deyil. Ölkəmizin suverenliyi qanla qazanılıb və biz buna ilk növbədə, seçicilərimizə, özümüzə hörmət edirik.

Onlar hakimiyyəti tanıyıblarmı? - Tanıyıblar. Britaniya nümayəndə heyəti bizim müxalifətin təhriki ilə məsələni səsverməyə çıxarıb ki, bizim ("Gürcü Arzusu") hakimiyyətimizi tanımasınlar? – Çıxarıb. Düşüb və basdırılıb? - Basdırılıb. Deməli, indiki məqamda bizim legitim nümayəndə olub-olmamağımızla bağlı heç bir sual işarəsi qalmayacaq. Nə qədər ki, bütün bunlar keçib, burada (Avropa Şurası Parlament Assambleyasında) əleyhimizə səs verən hər kəs sakitləşib, ciddiləşib, faktları öyrənmək, bizimlə sübutlarla danışmaq istəyənə qədər, əgər bu baş verərsə, biz burada iştirakımızı bərpa edəcəyik. O vaxta qədər bunun mənası yoxdur!

**Tea Tsulukiani,**
**Gürcüstan Parlamentinin vitse-spikeri,**
*Gürcüstan nümayəndə heyətinin rəhbəri*
29 yanvar 2025-ci il

***Gürcüstan parlamentinin nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasında iştirakını dayandırır və yalnız Gürcüstan dövlətinə və xalqına qarşı ədalətsiz münasibət dəyişdikdən sonra fəaliyyətini bərpa edəcək!***

24-30 yanvar 2025-ci il **"VEÇERNİY TBİLİSİ"**

### Elektriklə işləyən avtomobilləri doldurma məntəqələri daha çox olacaq

Tbilisi meriyası şəhər ərazisində əlavə 198 elektriklə işləyən avtomobili doldurma məntəqəsinin quraşdırılması üçün hərrac elan edib.

Ekoloji cəhətdən təmiz nəqliyyata keçidin təşviqi paytaxt meriyasının prioritet istiqamətlərindən biridir. Hökumət yaxın bir neçə il ərzində ölkənin avtomobil parkının 90 faizini elektriklə işləyən avtomobillərlə əvəz etməyi planlaşdırır.

Hərracın şərtlərinə əsasən, hər bir elektriklə işləyən avtomobilin enerji doldurma məntəqəsi bir kvadratmetr sahədə yerləşəcək və onun gücü 30 kVt olacaq.

Bütün şəhəri əhatə edən gələcək stansiyaların ünvanları hərracda üç lot üzrə-hər birində 66 ünvanda təqdim olunur. Hər lotun ilkin qiyməti təxminən 43,6 min laridir.

Elektriklə işləyən avtomobillər üçün bütün doldurma məntəqələri pulsuz olacaq.

Milli Statistika İdarəsinin məlumatına görə, 2024-cü ilin sonunda Gürcüstanda 7777 elektriklə işləyən avtomobil qeydə alınıb və onların sayı son bir ildə 2725 ədəd artıb.

"Sakstat"ın məlumatına görə, yanvar - noyabr ayları arasında ölkəyə 91,6 milyon dollar dəyərində 4711 elektriklə işləyən avtomobil idxal edilib. Sözügedən avtomobillərin əksəriyyəti Gürcüstana ABŞ, Çin və Yaponiyadan gəlir.

Gürcüstan 24,6 milyon dollar dəyərində 985 avtomobil ixrac edib. Gürcüstandan elektromobillərin göndərildiyi əsas ölkələr Qırğızıstan, Qazaxıstan və Ermənistandır.

### Gürcü futbolçuların qiyməti qalxır

İtaliyanın "Milan" klubu "Yuventus"u qabaqlayaraq , "Empoli"nin 20 yaşlı müdafiəçisi Sabu Qoqliçidzenin xidmətlərindən faydalanmağa ümid edir,-"Football Italia" belə xəbər yayıb.

Gürcüstan millisinin üzvü 2024-cü ilin yanvarında Kutaisinin "Torpedo" klubundan İtaliya klubuna keçdikdən sonra sanballı nəticələr əldə edib. O, "Empoli"nin əsas komandasında inamla özünü təsdiqləyib.

"Milan" rəhbərliyi Qoqliçidzeni 6 ay müddətinə hazırkı klubunda icarə əsasında qalması şərti ilə almağa hazırdır.

Qoqliçidze "Empoli"yə qış transfer pəncərəsi zamanı yarım milyon avrodan aşağı qiymətə keçib. Onun hazırkı müqaviləsi 2027-ci ilin yayına qədərdir. O, bu mövsüm A seriyasında 17 oyun keçirib.

Almaniyanın nüfuzlu "Transfermarkt" portalının məlumatına görə, Qoqliçidzenin bazar dəyəri bir il ərzində 8 milyon avroya yüksəlib.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# YÜKSƏK QAN TƏZYİQİNİ AZALDAN 6 QİDA MƏHSULU

## BADAM, BİBƏR, KOKOS SÜDÜ, ÇİY KAKAO, ZƏRDƏÇAL (KURKUMA) DARÇIN



**Bibər növlərindən olan qara bibər haqqında məlumat**

Qara bibər Pepper ailəsinə aid çoxillik dırmaşan bitkidir. Bu bitkinin vətəni Hindistanın cənub-qərb sahilində yerləşən Malabar bölgəsidir (indiki Kerala ştatı). Bu bitki demək olar ki, heç vaxt vəhşi təbiətdə tapılmır, meyvələri üçün meşələrdə becərilir, ondan müxtəlif emal yolu ilə ədviyyatlar alınır, məsələn: yetişmə mərhələsinə yaxınlaşan və ya hələ də bir qədər yetişməmiş giləmeyvələrdən alınan qara bibər; üst qabığından soyulmuş toxumlardan əldə edilən ağ bibər; yaşıl bibər, bu ad altında bir neçə növ emal olunmuş və yetişkənlik dərəcəsinə çatmış bibər giləmeyvəsi gizlənə bilər: adi qara bibərdən bir qədər erkən yetişmə mərhələsində yığılmış bibər: qara bibərə bənzəyir, lakin yaşıl qabığa malikdir və dadı bir qədər yumşaqdır; tam yetişməmiş yığılmış bibər: dəyirmi, qırışmamış giləmeyvə kimi salxımlarda görünür, Hindistan və Cənub-Şərqi Asiya mətbəxlərində təzə istifadə olunur; yuxarıda təsvir edilən yetişmə dərəcəsi ilə müxtəlif üsullarla (o cümlədən duzlu) fermentləşdirilmiş və emal edilmiş bibərlər; emal zamanı rəngini və dadını dəyişir, lakin rəfdə daha dayanıqlı olur (daha uzun müddət saxlanılır);

yetişmiş bibər giləmeyvələrindən əldə edilən çəhrayı/qırmızı bibər (bazarda ən nadir olan); Qabığın şirin dadı var.

Bibərin tərkibində qatran (1%-2%), yağ (6%-12%) və çoxlu nişasta var. Bibərin kəskin maddəsi piperin alkaloididir (5%-9%), qoxusu isə efir yağının (0,9%-2,5%) olması ilə əlaqədardır. Efir yağının tərkibində dipenten, fellandren və sesquiterpen karyofillen var. Qara bibərdə olan oleoresin sənaye üsulu ilə qida istehsalında qida əlavəsi kimi istifadə olunur.

Bu ədviyyatın insan orqanizmi üçün faydalı xüsusiyyətləri onun tərkibindəki vitamin və maddələrlə əlaqəlidir. Ədviyyatın tərkibində B, E, C və K vitaminləri, bir çox mikroelementlər (fosfor, natrium, kalsium, dəmir, mis, sink, flüor, manqan, selen, maqnezium və kalium), mühüm fol və pantotenik turşular var. Bundan əlavə, tərkibində zülallar, təbii kül və çox miqdarda lif var. Cüzi şəkildə istehlak edildikdə, bir çox müsbət xüsusiyyətlərə malikdir: sinir sistemini sakitləşdirir və hormonal səviyyələri sabitləşdirir; xərçəngin inkişafının qarşısını alır; maddələr mübadiləsini aktivləşdirir və yağ yandırma prosesinə başlayır; qanın suyulmasını təşviq edir; bədəni tullantılardan və toksinlərdən



təmizləyir (antioksidantlar sayəsində); diaforetik və diüretik xüsusiyyətlərə malikdir; immunitet sistemini stimullaşdırır; ekspektoran xüsusiyyətlərə malikdir, bəlğəmli öskürəyə təsir edir; dərinin ümumi vəziyyətinə faydalı təsir göstərir və üz rəngini yaxşılaşdırır, yüngül təbii ənliyi bərpa edir.

Üstəlik, qara bibər məşqdən sonra əzələ ağrısının azaldılmasına səbəb olur . İstiləşmə və qan dövranını stimullaşdırıcı təsiri sayəsində qara bibər revmatizmə və oynaqların artritinə kömək edir.

Ancaq həmin ədviyyatın bir sıra əks göstərişləri də var. Nəzarətsiz yeyildikdə, mədəbağırsaq traktının daxili orqanlarının divarlarını yandıra bilər. Aşağıdakı hallarda ədviyyat istehlakını mümkün qədər məhdudlaşdırmaq lazımdır: yanğı və mədənin artan həssaslığı zamanı; kəskin və xroniki qastrit üçün; mədə xorası üçün; yüksək qan təzyiqinə meyllisinizsə; böyrək və sidik kisəsi xəstəlikləri üçün; psixi pozğunluqlar olduqda.

Hər hansı bir ədviyyatlı yeməyin istehlakında əhəmiyyətli məhdudiyyətlər varsa, ədviyyatı pəhrizinizə daxil etməməlisiniz. Ədviyyat 5 yaşdan kiçik uşaqlara verilməməlidir.

*(Davamı növbəti sayımızda)*

# SON GÖRÜŞ, YAXUD ÖLÜMÜN ÜZÜ QARA OLSUN

***İnsan gəlir dünyaya,***
***Yaşayır, bir gün köçür,***
***Sağ ikən ölən də var,***
***Ölüb sağ qalan da var.***
*(Müəllifini bilmədiyim şair)*

Tanıyanlar bilirlər, pəhləvan cüssəli, dolu bədənli, sözlü-söhbətli, sözündən şirinlik süzülən, Qaracalarda tanınmış böyük nəsildən olan Məmmədağanın keçən ilin son aylarında bir neçə günün içində dünyasını dəyişməsi ailəni və yaxınlarını göz yaşlarına boğmuşdu. Son zamanlar günü-gündən ağrıları artan Məmmədağaya tanınmış həkimlərin müdaxiləsi və bahalı dərmanlar da kömək edə bilməmişdi. Sofiyevlər ailəsində baş verən nurani ağsaqqal itkisi qohumların və ailənin içini göynədirdi. Məmmədağanın dəfnindən 3 ay vaxt keçməsinə baxmayaraq, qohum-əqrəba yenə matəm içində mərhuma yas saxlayırdılar.

Gözəl insan, nurani ailə başçısı, yaxşı qohum kimi qısa müddətdə Məmmədağanın ölümü gözlənilməz olmuşdu. Mərhum sağlığında 50 yaşında görünsə də, 70 yaşa yaxın bir ömür sürdü. O, özünü həmişə xoşbəxt sayırdı, çünki xeyirxah idi, eldə-obada hörmət qazanmışdı. Onun ürəyi daima yaxşılıqlarla döyünürdü, həmişə haqqa sığınırdı. Nədənsə, qismətinə belə yazıldı, Tanrı bu xoşbəxtliyi ona çox gördü. O, eldən getdi, ancaq əməlləri, xatirəsi yaxınların, onu istəyənlərin yaddaşına köçdü. Unudulmaz mərhum qardaşımıza Allahdan rəhmət diləyir, ruhun şad olsun deyirik.

Son günlər Sofiyevlər nəslinin yaxın və müdrik bir adamının ailəyə kədərini bölüb məsləhət və tövsiyəsi həyat yoldaşını itirən Leyla xanıma və mərhumun bacısı Narxanıma bir qədər təskinlik vermişdi. „Qarşıdan yeni il gəlir"-dedi, - „libasınızı dəyişib özünüzü ələ alın. Çalışın ki, bir qədər qəmdən-kədərdən uzaq olasınız. Göz yaşları tökməklə həyatı geri qaytara bilməyəcəksiniz. „Ölənlə ölmək olmaz", - demiş atalar. Dözməkdən başqa çarə yoxdur. Bir az səbrli və dözümlü olub irəli baxın. Eşitdiyimə görə, sevimli balamız Məsudun da bu yaxın aylarda doğum günü olacaq. Onu da qeyd edib, şənlik yaradın, qoy uşaq da bir az sevinsin. Bir qədər göz yaşlarına son qoyun."

Bəli, adını çəkdiyimiz Məsud 3 ay bundan əvvəl dünyasını dəyişən Məmmədağanın kiçik oğlu Samirin böyük uşağı idi. 2007-ci ildə dünyaya göz açmışdı. Məsud doğulan günü Sofiyevlər ailəsində toy-bayram olmuşdu. Gənc ata-ananın ürəkləri riqqətə gəlmiş, Allahın verdiyi bu paya görə sevinc göz yaşları da tökmüşdülər. "Çox şükürlər olsun" deyib babası nəvəsi üçün qurban da kəsib, dünyaya göz açan körpənin şəninə böyük bir məclis də düzəltmişdi... İllər keçdi, Məsud qayğısız böyüməyə başladı. Məsudun özündən başqa Nazan və Hazal adlı bacıları da var idi. Məsud Qaracalar ictimai məktəbinin XII sinfində gürcü şöbəsində oxuyurdu. Nümunəvi bir şagird kimi məktəbin bütün ictimai işlərində fəallıq göstərirdi. O, şagird və müəllim kollektivi arasında böyük hörmət qazanmışdı. Böyük arzularla yaşayıb, həyata nikbin gözlə baxan Məsudun ən ümdə arzusu orta məktəbi əla qiymətlərlə bitirib ali məktəbə qəbul olunmaq və şərəfli bir peşə sahibi olmaq idi. Qəbul imtahanlarının vaxtı yaxınlaşdıqca öz üzərində daha ciddi çalışır, müəllimlərin təşkil etdiyi əlavə məşğələlərə və hazırlıq kurslarına da gedirdi. Ailəyə bağlı, məsuliyyətli bir şagird idi Məsud. Ata-anası da söz vermişdilər ki, yaxşı oxuyub istədiyin ali məktəbə qəbul olunsan sənə ən yaxşı bahalı bir hədiyyə bağışlayacağıq. Ancaq o, özünü həyatda təhsil alıb savadlı bir mütəxəssis kimi görmək istəyirdi.

Tanrı Məsudu anadangəlmə nurlu yaratmışdı, simasında parlaqlıq var idi, özü də bənzərsiz. Boyu-buxunu, yaraşığı, rəftarı sifətinə gözəllik verirdi. Bütün hərəkətləri, ədəb-ərkanı bir-birini tamamlayırdı Məsudun.

Dünyaya göz açan hər bir körpəyə həyatda gözəl və səmimi olmaq, əsl insanlıq, gözəl vərdişlər ona ana bətnində verilmir. O, böyüyür, püxtələşir, əvvəlcə ailədə, sonra oxuduğu məktəbdə, sonra da cəmiyyətdə formalaşıb gözəl əməllərə sahib olur. Məsud da ilk ədəb qaydalarını böyüdüyü nümunəvi ailəsində almışdı. Əxlaqı, nümunəvi nəzakətli rəftarı, sinif yoldaşlarına münasibəti onu ailəsinin və sevimli müəllimlərinin, məktəbli yoldaşlarının istəklisinə çevirmişdi. Bu hörmət-mərifəti onun özü gözəl əməlləri ilə qazanmışdı.

2025-ci ilin ilk günü idi. Hər tərəfdə bayram əhval-ruhiyyəsi duyulurdu. Səhər olmasına baxmayaraq səma çox aydın görünür, elə bil insanların üzünə gülürdü. Başqaları kimi Məsud da yuxudan vaxtında oyanmışdı. Gecə Yeni



illə əlaqədar bir qədər sevincli saatlar yaşamağa çalışsa da, həmin anlar nə babasının yoxluğunu unutmağı bacarırdı, nə də içində çəkdiklərini ətrafdakılara büruzə verirdi. Həmin gecə məktəb yoldaşları ilə öz aralarında paylaşım da etmişdilər.

Ancaq ilk gündə bir neçə saatdan sonra başına nələr gələcəyindən xəbərsiz idi Məsud. Yanvarın belə gözəl günündə kəndə çıxıb bir az maşınla gəzmək istədiyini bildirmişdi ailəyə... Aradan vaxt keçirdi, onun evə qayıtmaq vaxtı idi, yolunu gözləyirdilər... Ancaq özü gəlmədi, gözləri yola dikilənlərə ürək göynədən acı xəbər gəldi...

Qəflətən, gözlənilmədən yayılan qara xəbər ailəni və bütün kəndi birdən-birə sarsıtdı. Məsudun qonşu kəndin yaxınlığında avtomobil qəzasında dünyasını dəyişməsi xəbəri ildırım sürəti ilə bütün kəndi bürüdü. Bu qara xəbər qısa bir müddətdə Qaracalar kəndini, böyükdən-kiçiyə-hamını göz yaşlarına qərq etdi.

Böyük və görünməz bir faciə idi ömrünün çiçəkləndiyi bir vaxtda balamız Məsudun vaxtsız ölümü. Baş verən qəfil ölüm xəbəri yayılan zaman kəndin hər tərəfindən ağlaşma, fəryad səsləri eşidilirdi. Qədim Qaracalar kəndi bərqərar olunandan indiyədək belə bir dəhşətli günü nə görmüş, nə də belə bir ağrını yaşamışdı. Ahıl, cavan, məktəb uşaqları bir-birinə qarışmışdı. Hamı sinədəftər olmuşdu Məsudun faciəli ölümünə, bayatılar söyləyir, ağılar deyirdilər. Nakam mərhumun acı taleyi üçün dil deyib nalə qoparan anaların səsləri yoldan ötən yad adamları da qəhərə boğmuşdu. Qısa bir vaxtda kəndi tam yarı bölən asfalt yol da izdiham əlindən bağlanmışdı. Məmmədağanın böyük həyətində adam əlindən yer yox idi.

2025-ci il 3 yanvar. Ölümünün 3-cü günü idi. O gün daha çox yerlərdən qonaqlar gəlmişdi nakam mərhumla vidalaşmağa. Əslən Tbilisidən olan mərhumun nənəsi Leyla xanımın qohumları, əmisi - Qardabani merinin Qaracalar kəndi üzrə nümayəndəsi olan Raminin rayondan gələn iş yoldaşları, qonşu Azərbaycandan gələnlər, yaxın kəndlərdən, məktəbin müəllimləri, yuxarı sinif şagirdləri, kənd əhli. Daha kimlər, kimlər yox idi vida mərasimində? Minlərlə adam göz yaşları içində Məsudla vidalaşmağa gəlmişdi həmin gün.

Cənazə və bütün ətrafı əklillər, qərənfillərlə əhatə olunmuşdu. Mən ömrümdə bu qədər gül dəstələri görməmişdim. Elə bil göydən yerə qərənfil yağırdı, İlahi! Gülləri, əklilləri qoymağa yer də tapılmırdı, hər gələn gözü yaşlı bir dəstə güllə gəlirdi Məsudla son görüşə.

...Müəllimlərin və şagirdlərin xahişi ilə cənazəni məktəbdən götürmək qərarına gəldilər. Məktəbin böyük həyətində adam əlindən tərpənməyə yer yox idi. Müəllimlər və şagirdlər ürək sözlərini söyləmək istəyirdilər vida günündə. Ancaq heç biri danışa bilmədi, nitqlər tutuldu, qəhər boğdu onları, bir cümlə də deyə bilmədilər deyəcəklərindən. Ürək sözlərini sel kimi axan göz yaşları ilə əvəz etdilər. Əldən - ələ ötürülən mikrofondan ağlaşma, hıçqırtıdan başqa bir söz də eşidilmədi. Çox ağır olsa da, Məsudla əlaqədar videolentlər də nümayiş olundu, eyni zamanda Məsud üçün bu gün məktəbin son zəngi də vaxtından əvvəl çalındı.

Vaxt keçirdi, ürəkləri göynədən həzin və bir qədər də kədərli musiqi sədaları altında kəndin cavanları cənazəni məktəbin həyətindən qaldırıb ağır-ağır addımlarla kənd qəbiristanlığına doğru irəlilədilər. Arxadan sinif yoldaşlarının „əlvida, əziz dostumuz!"... nidaları da eşidilirdi. Bu „əlvida" sözləri cismani ayrılığa görə insanın qəlbini param-parça edirdi. Çox təəssüflər olsun ki, həmin gün bizim əzizimiz Məsudla son görüşümüz idi.

O gün dünyanın ən saf qəlbli bir gəncinin məqsədinə çatmaq üçün apardığı mübarizəsi yarımçıq qaldı; ürəyi böyük arzularla dolu idi. Hələ 18 yaşı tamam olmamışdı, çox az yaşadı. Bir insan ömrü üçün 17 yaş nədir ki... Ömrünün təzə çiçəkləndiyi bir vaxt idi.

3 yanvar vida günü idi. Həmin gün bir daha bütün qohumların acı göz yaşları sel kimi axırdı. Qəddi əyilmiş atası Samir, anası Firuzə tanınmaz günə düşmüşdülər, Məsud son mənzilə yola salınıb torpağa qovuşurdu. Dözülməz ağır dərd idi. Ancaq bircə təsəlli vardı. Çox qısa yaşasa da, bir övlad kimi, bir məktəbli kimi layəqətlə yaşadı, ailənin, bütün elin, müəllimlərin, məktəbli dostlarının sevimlisi olub, örnək bir insan kimi qəlblərdə özünə yer qazandı. Nə etmək olar? Ürəyi böyük arzularla döyünən mələk simalı balamıza həyat etibarsız çıxdı. Haqqın dərgahına qovuşan Məsud balamız bizdən cismən ayrılsa da, onun gözəl əməllərini yaşatmaq onu tanıyanların, dostların payına düşür.

Məsudun torpağa qovuşmasından bir neçə həftə keçir. Günlər, həftələr, aylar bir-birini qovur. Aradan uzun bir zaman keçəcək. Məsud bizdən cismən ayrılsa da, mənən bizimlə olacaq. Parlaq xatirəsi onu tanıyanların və Sofiyevlər ailəsinin qəlbində hər zaman və əbədi yaşayacaqdır.

Artıq yaza bilmirəm, qəhər boğur adamı, vaxtsız ölümdən yazmaq heç kimə asan görünməsin.

3 ay müddətində bir ailədə 2 ölüm hadisəsi: baba və nəvə. Baba ötən ilin son aylarında, nəvə isə Yeni ilin ilk günündə dünyasını dəyişmişdi. Baba ali təhsilli iqtisadçı idi, həyatda az-çox yaşamışdı, nəvə isə-17 yaşlı həyat üzünə gülməyən və bizdən qəflətən ayrılan saf əqidəli, acı taleli bir gənc. Dözülməz bir dərd idi ailənin başına gələn bu fəlakət. Allah övlad acısını heç kəsə göstərib, gözləri qəmli qoymasın.

Yenə təkrar edirəm, 17 yaş nədir ki! Nə edəsən, hər dərdin çarəsi səbrdir, dözməkdir! Bütün Qaracalar elinə, Tbilisidə yaşayan qohumlara, Sofiyevlər ailəsinə "başınız sağ olsun" deyirəm. Səbrdən başqa çıxış yolu yoxdur, Allahdan rəhmət diləyirəm. Yeri behişt olsun nakam balamızın, Amin!..




Yazını ölməz şairimiz S. Vurğunun ölüm haqqında yazdığı misralarla tamamlamaq istəyirəm.

***Ölüm sevinməsin qoy! Ömrünü vermir bada***
***El qədrini, canından daha əziz bilənlər,***
***Şirin bir xatirətək qalacaqdır dünyada***
***Sevərək yaşayanlar,sevilərək ölənlər!***

**Sərxan Səfərov,**
**Qardabani rayonu, Qaracalar kəndi.**

Təəssürat

# “GÜRCÜSTAN”la TARİX OLAN BİR GÜNÜM

Ömrümüzü hissələrə bölsək, bizi gələcəyə aparan yol mütləq şəkildə uşaqlıqdan keçir. Bu sözün, həqiqi mənasından başqa, bir məcazi tərəfi də vardır; uşaqlıq dövründə insanın yaşadıqları ona həyatı boyu sirayət edir.

Gürcüstanda keçən uşaqlığımdan xoş xatirəm isə əl-əl gəzən kitabları oxumaq üçün növbə gözləyənlər və bəzi Azərbaycandan gələn qəzet və jurnalları abunəçilər bir –biri ilə dəyişərək bütün kəndin oxuması idi. Baxmayaraq ki,bu “gəlmə mətbuat “ ziyalılara abunəylə gəlirdi, amma hər kəsin evinin bir əsas qəzeti vardı. Bu, fəhlə, kəndli, müəllim, həkim, hətta yuxarı sinif şagirdlərinin də abunəçisi olduğu “Sovet Gürcüstanı” qəzeti idi. Axı, bu bizim idi, özümüzün idi.

Biz ərazicə Gürcüstanda yaşayırdıq. O zamanlar gürcü dili tədrisi o qədər zəif idi ki, hətta ixtisaslı müəllimlər belə yox idi. Hamı rus dilini bilirdi, amma Gürcüstanın rəsmi yeniliklərini, respublika xəbərlərini bu qəzetdən öyrənirdilər. Hətta o da yadıma gəlir ki, bəzi şikayətləri də bu qəzet vasitəsiylə lazımı yerə çatdırırdılar.

Bir sözlə, “Sovet Gürcüstanı” qəzeti bütün borçalılarla dövlət, hökümət arasında ünsiyyət vasitəsi idi. Xüsusən də məlum münaqişələr zamanında artıq müstəqilliyə yol alan Gürcüstan Respublikasının qanun və qərarları bu qəzet vasitəsiylə daha dolğun şəkildə xalqa çatdırıldı. Keçid dövrünün çətinlikləri ilə birlikdə mənim Gürcüstan xatirələrimin Bakı yerdəyişməsi məni özüylə apardı.

Bax beləcə, 30 illik bir zaman uzaqlığıyla bir gün geri döndüm. Məktəb yaşlı getdim, qayıdanda yetkin yaşlı, ailəli, yeniyetmə övladlarımla gəldim. Qoyub getdiyim Gürcüstanla qarşılaşdığım Gürcüstan o qədər fərqli idi ki, yoldaşımın burda yaşayaq təklifini düşünmədən qəbul etdim. Hətta ikinci vətəndaşlıq belə qəbul etdim. Müəllim kimi peşəmi burda davam etdirdim. Hər şey bir xatirə idi..bəzən şirin, bəzən acı, bəzən də kövrək.. Yeniliklər, inkişaf ürək açırdı...

Bir gün məktəbə bir qəzet gətirdilər ”Gürcüstan” Qəzeti əlimə aldım, maraqla vərəqlədim...30 ildə ilk dəfə olaraq “Sovet Gürcüstanı” qəzetini xatırladım. Deyəsən o daha böyük idi, o mənə daha doğma idi... acgözlüklə vərəqlədim...istədim o sətirlərin xəttiylə qaçam...uşaqlığıma doğru, xatirələrə tərəf...bu kövrəklik elə qəribə hiss idi ki, onu heç cür təsvir edə bilməzdim. İçimdən, kimliyini bilmədən, bu qəzeti yaşadanlara bir minnətdarlıq keçdi. Bir gün də zəng edib əməkdaşlıq etmək istədiyimi dedim. Bəli, dövlət qəzetində rəsmi müqaviləylə təsdiq olundum.



....Bir gün də zəng edib nazirliyə rəsmi görüşə dəvətli olduğumu dedilər. Fürsət, bu fürsət deyə ilk olaraq yolumu elə qəzet redaksiyasından saldım. Texnologiyanın inkişafının maksimum həddi mətbuatda daha asan və səmərəlidir. Bu səbəbdən redaksiyada təbii ki, seyrəklik olacaqdı. Qəzet dizaynı, tərtibatıyla məşğul 3 gənc vardı. Digər heyətin bəyaz saçları zamanı xatırladırdı. Əlində fotoaparat olan adamın “foto E.Şahvələdindir” yazılan imza sahibi olmasını təyin etmək asan oldu. Haqqında oxumuşdum, 6 müharibə iştirakçısı olan əməkdar jurnalist kimi prezident Təşəkkürnaməsinə layiq görülmüşdü. Digər əməkdaşlar da necə deyərlər, ömrünü qəzetə həsr edən, nə yaxşı ki, əməyi qiymətləndirilən insanlar idilər.

Qəzetimizin ofisi kirayə deyildi. 4 otaqdan ibarət olan tikili 10 il müddətinə dövlət tərəfindən verilmişdi. Bu çox böyük bir etimad və dəstək idi. Redaktorun kabinetində “Sovet Gürcüstanı” qəzetinin 1941-ci il çağırış sayı asılmışdı. Qəzet xüsusi çərçivədə divardan “sanki mən nə günləri yaşatdım “- deyə hayqırırdı. Həmçinin, rəfdə qəzetin 100 illik yubileyindən şəkillər vardı. Bu gün bizi görüşə şağıran Tea Axvledianinin böyük əməyi və fədakarlığından. Qəzetin 103 yaşlı əməkdaşının yubileyə gətirilməsi tarixçəsini maraqla danışdılar. Qəzetin yaşamasında dövlət dəstəyini, o cümlədən Tea xanımın xüsusi diqqətini qeyd etdilər.

Onu da qeyd etdilər ki, ildə 130.000 nüsxə qəzet çıxır və qəzetin bir ədədi 80 tetriyə hasil olsa da, onu 40 tetriyə abunəçilərə satırıq. Abunə sayı azdır dövlət tərəfindən dəstəklənən yeganə milli mətbuat nümunəmiz olan Qəzetimizi yaşatmaq hamımızın borcudur. Hazırda qəzetdə çalışan bu insanlar maaşdan çox vicdan səsiylə kifayətlənirlər.

Sonra biz qəzet əməkdaşlarıyla birlikdə Hökumət idarəsinə yol aldıq. Baş nazirin iqamətgahına tərəf



uzaq pillləkanları yaxın edərək binaya daxil olduq. Mənim üçün bu ilk gəliş idi. Erməni dilində “Vrastan” və Azərbaycandilli “Gürcüstan “ qəzeti əməkdaşları ilə görüşəcək. “Barışıq və Vətəndaş Bərabərliyi məsələləri üzrə dövlət naziri Tea Axvledianinin Estoniyada səfir işləmiş, gülümsər bir xanım olduğunu bilirdim. Onun qəzetimizin 100 illiyində etdiklərini də bilirdim. Bu günü isə xüsusi maraq və bir az narahatçılıqla gözləyirdim, axı ilk görüş idi... Bizi yoxlamadan sonra iki gənc qarşıladı - Anar və Elvira. Hər iki gənc nazirlikdə rəsmi işə təyinatlı idi. Anar Kvemo Kartili üzrə müşavir, Elvira isə Vətəndaş departamentin işçisi idi...Bilmirəm bütün nazirliklərmi belə idi, yoxsa burda...hamının gülər üzü, xoş münasibəti müsbət aura yaradırdı. Bizi hörmətlə rəsmi iclas salonuna gətirdilər. Bir istiqamətdə oturduq. Az sonra “Vrastan“qəzeti əməkdaşları gəldilər. Onlar digər tərəfdə. Qəzetin redaktoru Van Bayburt bizim redaktorla, digər əməkdaşlar da bizimlə üz-üzə oturdular. Bir az gülməli, həm də acınacaqlı gəldi mənə bu vəziyyət. Bilmirəm, mən kövrəyəm, yoxsa bu həqiqətmi illərlə dost, yoldaş, duz-çörək kəsmiş insanların mənasız fitvalarla qan tökmələri, sadə insanların beyninə - “düşməndir” kəlməsi doldurularaq müharibəyə gətirilməsi... Gülməli dediyim o idi ki, hamı sakit dayanmışdı, bir-birinin üzünə baxırdılar. Mən qətiyyən düşmən kimi baxmırdım, sadəcə bir insan kimi baxırdım, hamını nəzərdən keçirdim, çünki mən əlinə qələm alan hər bir insanı bir başqa cür düşünürəm- ədalətli, vicdanlı, qərəzsiz! Bax bu insanları da mən ədalətli, vicdanlı, qərəzsiz kimi düşündüm. Tea xanımın iki xanımla - muavini Lia Qiqauri və Vətəndaş bərabərliyi şöbəsinin rəhbəri Tina Tina Qoqelianinin salona daxil olması mənim qarışıq fikirlərimə və salondakı xoş olmayan ağır sükuta son qoydu. Qiyabı tanıdığım bu baxımlı xanım elə düşündüyüm kimi vardı. Etiraf edim ki, bir qadın həmrəyliyi kimi məsul postda oturan bu gözəl xanımlar məndə bir qürur hissi yaratmışdı. Əminidim ki, artıq görəcəyim, eşidəcəyim hər söz müsbətə yüklənəcək. Tea xanım hər iki redaksiya heyətini salamladı. Cavaxeti, Kvemo Kartli və Kaxet bölgəsində bu qəzetlərin fəaliyyətini, ictimaiyyətlə əlaqəsini yüksək qiymətləndirdi. Tea xanım bildirdi ki, “biz hər iki qəzetin fəaliyyəti barədə araşdırma aparmışıq. Əhalinin yığcam yaşadığı bu ərazilərdə, xüsusən də yetkin yaşlı əhali arasında dövlət dilinin zəif olması səbəbindən bu qəzetlər bələdçi rolunu oynayır” dedi. “Dövlətimizin siyasi, iqtisadi, mədəni inkişafındakı yenilikləri azlıqların öz dilində onlara çatdırmaqda dövlət dəstəyini əsirgəməyəcəyik” dedi. Hər iki redaktora fədakarlıqlarına görə minnətdarlıq etdi. “Qəzetlərdəki müxtəlifilik onların səmərəliliyini daha da artırır” dedi. Qəzetlər üçün ayrılan subsidiyadan, dövlətin bu işdə onlara mümkün qədər edə bildiyi köməkdən danışdı.

İlk sözü “Vrastan“qəzetinin baş redaktoruna verdi. Redaktor gördüyü işlərdən, planlarından danışdı. “Gürcüstan” qəzeti ilə də yaxın münasibətimiz həmişə olub dedi, hətta Süleyman Süleymanovun zamanından dedi... Növbə bizim redaktor Xaləddin Yolçuyevə çatdı. Redaktor ilk növbədə, əməkdaşları təqdim etdi. “Hazırda redaksiyada 3 əməkdar jurnalist fəaliyyət göstərir, qəzetin administrasiya meneceri, foto - müxbirimizin və regionlardakı müxbirlər də demək olar ki, qəzetimizin xüsusi veteranlarıdır. 60-70-ci illərdən bu günə qədər qəzetimizə sadiqdilər. Biz yeniliklər qədər gənc kadrlara da yer veririk. Hazırda ofisimizdə gənc kadrlar da bizimlə birlikdədir, hətta regionlardan müəllimləri də ştatdankənar müxbir kimi sıramıza qəbul etmişik. Qəzetimizdə dövlət dilini öyrədən rubrika illərdir fəaliyyət göstərir. Həmçinin, qəzetimizdə region xəbərləri, məktəblərdən xüsusi buraxılışlar, bədii səhifədə oxucuların yaradıcılığı, həmçinin tarixi əsərlərdən tərcümələr veririk” dedi. Tea xanım maraqla qəzetimizi vərəqlədi və məmnun şəkildə gülümsədi. Deyəsən, qəzetin tərtibatından razı görünürdü. O, yenidən heyətə uğurlar arzuladı. Sonda redaktorumuz qəzetimizin 100 illiyində Tea xanımın birbaşa təşkilatçılığı ilə hazırlanan dövlət tədbirindən çəkilmiş kollektiv xatirə şəklini xüsusi çərçivədə Tea xanıma, müavinlərə və Van Bayburta da hədiyyə olaraq təqdim etdi. Rəsmi söhbətlər sonu bir günün xatirəsinin yaddaşı olan çərçivə hədiyyəsi xoş bir təəssürat oyatdı. Tea xanım bizim üçün hazırlatdığı xüsusi fürşet süfrəyə dəvət etdi. Biz paralel böyük zala keçdik. Böyük zalda hər kəs seçmiylə yemək götürdü. Pərakəndə şəkildə oturduq. Bu zaman xanım nazir zala daxil oldu. “Bunlar sizin üçün” deyə kimsəni buyurmadan özü olanları süfrəyə gətirməyə başladı, digərləri də ona köməkçi oldu. Beləcə, nazir xanım özü də keçib süfrə arxasında oturdu. Başqalarını bilmirəm, bu nazir gözəlliyi, xoş təbəssümü bir yana sadəliyi, səmimiyyəti ilə məni özünə valeh etdi. Hamı ilə birlikdə oturub şirin söhbət edirdi. Süfrə arxasında artıq qarışıq şəkildə oturub hamı bir biri ilə söhbət edirdi. Bayaqkı rəsmiyyət, çəkinmələr yox idi. Süfrə xoşməramlı ciddi səmimiyyət ocağını xatırladırdı.

Bu xoş auradan qaynaqlanaraq ayağa qalxıb gürcü dilində:

— Tea xanım, olarmı mən 5 dəqiqə Azərbaycan dilində danışım. Anar bəy tərcümə edər...

— Əlbəttə, buyurun, - dedi.



— Mən Gürcüstan əsilliyəm. Bakıdan gəldim. Mən ilk bu qəzeti görəndə çox sevindim. Qəzetin Gürcüstan dövləti tərəfindən maliyyələşməsini öyrəndim. Mənə uşaqlığımı yaşadan bu qəzeti yaşatdığınız üçün sizlərə bütün Gürcüstanda yaşayan Azərbaycanlılar adından minnətdarlığımı bildirirəm. İkincisi, bu gün burda bir fərqlilik də var. Mən burda doğuldum, atam-babam da burda doğuldu, ermənilərlə dost oldular, hətta bir - birinə “kirvə” dedilər. Bugünkü məlum hadisələr sadə adamlardan biri kimi mənə də xoş deyil. Siz bu gün həm də bir fərqlilik etdiz. Bir - birinə düşmən kəsilən bu iki milləti bir süfrə arxasında oturtduz və bununla da sübüt etdiz ki, Gürcüstan tolerantlıqla, ayrı - seçkilik etmədən hər bir Gürcüstan vətəndaşına eyni münasibət bəsləyir.

Danışdıqlarımı müşavir Anar bəy tərcümə edərkən mənimlə yaxın oturan nazir müavini Lia xanımın “kaş belə gürcü dilində danışaydız” atmacasını da eşitdim və davam etdim:

— Tea xanım söz verirəm ki, mən qəzetimizin 105 illiyində sizlərlə gürcü dilində danışacam. Hamı yekdiliklə alqışladı. Mən qapıya yaxın olmağım səbəbiylə dəhlizə çıxdım və bu zaman Tea xanım xüsusi olaraq mənə yaxınlaşıb, özəl təbəssümü ilə dedi: --Siz gürcü dilində bilmirsiz, yəqin rusca bilirsiz, istədim sizə deyəm və mənə əl uzadıb dedi; “Çok saq ol, teşekkur edirem, minnetdaram” gözləmədəyim nəticədən mən də çaşdım, hər ikimiz birdən güldük və qucaqlaşdıq.



— Sizinlə təklikdə şəkil istərdim dedim.

— Əlbəttə, buyurun, - dedi. O ilk olaraq mənimlə, sonra da - gəlin birlikdə hamılıqla günümüzü əbədiləşdirək – dedi. Bax beləcə, gülümsər çöhrəli nazirimizin xoş məramlı görüşü sona çatdı. Biz baş iqamətgahdan ayrıldıq. Dərin təəssüratla, böyük ümidlərlə.

**P. S.** Dövlət məmurlarının iş qabiliyyətindən başqa insanlığı, səmimiyyəti, anlayışı da çox önəmli. Kaş təyinatla da vəzifə verilərkən belə xüsusiyyətlər öndə olaydı...

**Esmira Ələkbərli.**

**Fotolar E.Şahvələdindir.**

MƏDƏNİYYƏTLƏRARASI DİALOQ

# UNUDULMAZ SƏNƏTKAR: TENGİZ ABULADZE

Yanvarın 31-i görkəmli gürcü kinorejissoru, qiymətli ssenarilər müəllifi Tengiz Abuladzenin (1924.31.I. – 1994.6.III.) doğum günü idi.

Bu münasibətlə həmin gün Gürcüstan Azərbaycanlıları Konqresinin təşəbbüsü və təşkilatçılığı ilə Konqresin ofisində Tengiz Abuladzenin həm doğum günü, həm də anım gününə həsr olunmuş maraqlı tədbir keçirilib..



Tədbiri giriş sözü ilə GAK-ın sədri Hüseyn Yusubov açdı. Hüseyn müəllimin xahişi ilə əvvəlcə Gürcüstanımızı dünyada tanıdan görkəmli sənətkarın xatirəsi bir qəqiqəlik sükutla yad edildi.

GAK sədri sonra Tengiz Abuladzenin ömür yolunu vərəqlədi: həyatından maraqlı epizodlar danışdı. Sənətkarın ekranlaşdırdığı "Dua", "Dilək ağacı", "Tövbə" filmlərindən ibarət trilogiyadan, N. Dumbadzenin qələmindən çıxmış "Mən, nənəm, İliko və İllarion" əsərinin motivləri əsasında çəkdiyi ekran əsərindən danışdı.

H. Yusubov bildirdi ki, təkcə "Gürcüstanı sevirəm" deməklə iş bitmir. Çünki inteqrasiya üçün gərək öz dəst-xətti olan, böyük dəyərlərə malik gürcü mədəniyyətini bilək. Konqres olaraq bir mədəniyyət körpüsünə çevrilmək və gənclərə mədəniyyət aşılamaq kimi missiyanı üzərinə götürmüş Gürcüstan Azərbaycanlıalrı Konqresi bundan sonra da öz ampluasında qalacaq və uğurla yoluna davam edəcəkdir. Hüseyn müəllim çıxışının sonuna yaxın tədbir iştirakçılarına, xüsusilə də Marneuli bələdiyyəsinin Mədəniyyət şöbəsinin rəhbəri Nato xanım Şavişviliyə, Marneuli Bələdiyyəsinə, mədəniyyət sektorunu təmsil edənlərə səslənərək bölgəmizdə mədəniyyətin gələcəyi naminə işbirliyi təklif etdi.

Tədbir iştirakçılarının çıxışlarından maraqlı məqamları diqqətinizə çatdırırıq.

Marneuli bələdiyyəsinin Mədəniyyət şöbəsinin rəhbəri **Nato Şavişvili:**

–Tengiz Abuladze tarix yazmış, ölkəmizi dünyada tanıtmış bir sənətkardır. O, gürcü mədəniyyətinin sütunlarındandır. Qısa, lakin şərəfli ömür yaşayıb. Onu andığınız, bizi onun Ad Günü işığına yığdığınız üçün hər birinizə təşəkkür edirəm! Siz bir mədəniyyət körpüsüsünüz!

Tanınmış ekspert **Mübariz Qarayev:**

– Mən "Tövbə" filminin Tbilisidəki premyerasında olmuşam. "Yenidənqurma" dövrünə düşən bu filmdən aldığım dərin təəssürat bu günəcən yaşayır. Diktatorluğun faciə olduğuni ilk dəfə Tengiz Abuladze, özü də bu səviyyədə göstərirdi! Hesab edirəm ki, bu cür tədbirləri bir bələdiyyə səviyyəsində deyil, ölkə miqyasında keçirməliyik!

Meriyanın ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri **David Çikadze:**

– Mədəniyyətlərarası dialoqdan güclü dialoq yoxdur. Bu gün dialoq qurmaqda bizə Tengiz Abuladze, onun unudulmaz filmləri yardımçı olur. Planımız var ki, filmlərin titrlərini, alt yazılarını bölgəmizdəki etnosların dilində, yəni bir neçə dildə, o cümlədən gürcü və azərbaycan dillərində göstərək.

Sabiq Parlament deputatı **Ramiz Bəkirov:**

– Konqres bizim ocağımız, ailəmizdir. Ailəmiz sağ olsun ki, belə körpü-dialoq tədbirlər keçirir. Tengiz Abuladze Azərbaycan kinosunun tarix yazan müəllifləri ilə — Rüstəm İbrahimbəyov, Tofiq Tağızadə kimi sənətkarlarla dostluq edib:.



Məktəb direktoru **Hümbət Hüseynov:**

–Otar İoseliani, Rezo Çxeidze, Qeorqi Danelia və Tengiz Abuladze kimi kino ustadları ölməzdirlər! Məhz onların filmləri gürcü kinematoqrafiyasını dünya kino arenasına çıxarıb. Tengiz Abuladzenin təkcə məşhur trilogiyası deyil, həm də "Maqdanın eşşəyi", "Marita" kimi debüt filmləri də məşhur olub.

Yazıçı **Əli Abbas:**

–Bizm ailədən iki Xalq artisti çıxıb. Onlar gürcü kino və teatr xadimləri ilə dostluq ediblər. Bununla fəxr edirəm! Qeyd edim ki, Tengiz Abuladze də Ş.Rustaveli adına Teatr İnstitutunu bitirmişdi. Onlar elə sənətkarlardır ki, gələcəyimizə işıq tuturlar!

...Çıxış edənlərdən idarə xidməti (aparat) rəhbəri Mamuka Şubitidze, Sakrebulonun ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Eka Eradze, Gənclər və İdman şöbəsinin rəhbəri Elquca Kupatadze, ziyalı-tərcüməçi M.Aslanov, merin müşaviri Kamran Kiryakov (yazıçı Kamuran) öz ürək sözlərində Tengiz Abuladzenin ölməz şəxsiyyətindən və ölməz sənətindən söz açdılar. Gürcüstan Azərbaycanlıları Konqresinə və onun bütün heyətinə yüksək səviyyəli tədbir üçün təşəkkürlərini bildirdilər. Ümidvar olduqlarını bildirdilər ki, belə mədəniyyət tədbirləri davamlı olacaqdır.

**İbrahimxəlil**

MÜSABİQƏ

## "GRAMMY" 2025 - KİMLƏR ƏN YAXŞI OLDU?



Fevralın 3-də ABŞ-nin Los-Anceles şəhərində keçirilən "Grammy" 2025 mükafatlandırma mərasimində qaliblərin adları açıqlanıb.

İlin rekordu və ilin mahnısı nominasiyalarında qalib Kendrick Lamar "Not Like Us" mahnısı ilə olub.

Ən yaxşı yeni sənətçi mükafatı isə Chappel Roana verilib.

Tədbirdə ən çox gözlənilən nominasiyalardan biri - "İlin albomu"na isə Beyoncénin Cowboy Carter albomu layiq görülüb.

Bundan əlavə, Beyoncé eyni albomla "Country Rock" janrında da ən yaxşı albom mükafatını qazanaraq, gecənin ən çox danışılan simalarından birinə çevrilib.

Digər qaliblər:

**Pop və R&B:**

**Ən yaxşı pop vokal albomu** - Sabrina Carpenter - Short n' Sweet

**Ən yaxşı solo pop ifası** - Sabrina Carpenter - Espresso

**Ən yaxşı R&B mahnısı** - SZA - Saturn

**Ən yaxşı R&B albomu** - Chris Brown - 11:11 (Deluxe)

**Rock və Metal:**

**Ən yaxşı rock performansı** - The Beatles - Now And Then

**Ən yaxşı rock albomu** - The Rolling Stones - Hackney Diamonds

**Ən yaxşı metal performansı** - Gojira, Marina **Viotti & Victor Le Masne** - Mea Culpa (Ah! Ça ira!)

**Rap :**

**Ən yaxşı rap performansı -** Kendrick Lamar - Not Like Us

**Ən yaxşı country albomu-**Beyoncé - Cowboy Carter

**Ən yaxşı country solo performansı-**Chris Stapleton - It Takes A Woman

**Film və TV üçün musiqi:**

**Ən yaxşı film musiqisi -** Hans Zimmer - Dune: Part Two

**Ən yaxşı musiqi klipi** - Kendrick Lamar - Not Like Us

**Ən yaxşı musiqi filmi -** American Symphony

Caz və Klasik:

**Ən yaxşı caz vokal albomu** - Samara Joy - A Joyful Holiday

**Ən yaxşı opera performansı -** Ortiz: Revolución Diamantina-Gustavo Dudamel, Los Angeles Philharmonic

Gecənin digər diqqətçəkən anlarından biri də The Beatles qrupunun "Now and Then" mahnısı ilə "Ən Yaxşı Rock Performansı" nominasiyasında qalib olması idi.

XATİRƏ

## SÖZ – ƏBƏDİ, BİZ GEDƏRGİ BİR QONAQ..."



"Ölmək – ölüm deyil, unudulmaq ölümdür!", –deyib babalarımız. Heç vaxt unudulmayan, unutmadığımız, ədəbi-bədii söz dünyamızda xüsusi yer tutan, yaradıcılığı ilə ədəbi mühitin və xalqın rəğbətini qazanmış, dilimizə və ədəbiyyatımıza gözəl bələd olan, 30-dan artıq kitab müəllifi qazi - şair Nizami Paşa Saraclının (10.06.1950 – 31.01.2024) vəfatından bir il keçdi. Günlər, aylar, illər doğrudan da qanadlı imiş !

İldönümlə əlaqədar şairin dogma kəndi Saraclıda onun Anım tədbirinə qatılanlar: ailəsi, dogma kənd sakinləri, ziyalılar, şairin yazar dostları-tanışları onu xatirələr işığında anmışlar.

Nizami Saraclının bir səmimi şair sözü var idi: deyirdi ki, biz tərəflərdə ürəyi üstündə yatan uşaqlar şair olur! O, hələ uşaqkən, anası İsmi ana qonşulara deyirmiş ki, oğlum ürəyi üstə yatır, şair olacaq, vallah!

Burada da, orada da ürəyi üstə yatan şairimiz, nur içində uyu!

Özün demiş:

Qara torpaq, mavi səma, bağça-bağ,
Qızmar aran, yaşıl zəmi, qarlı dağ…
…Söz – əbədi, biz gedərgi bir qonaq!

Sözün əbədidir, şair!

*"Gürcüstan"*

POEZİYA YARPAQLARI

### İsmarıc

Bir zaman Tiflisdə ismarıcımı
demişdim Kürə,
O da çatdırmışdı Azərbaycana.
Xəzər eşidəndə demişdi: "Gəlsin".

### Kölgə

Ağac da yox idi həyətlərində,
Zəhmətkeş atanın alt köynəyini
Yuyub da kəndirə sərəndə ana
Onun kölgəsində oynayırdılar
Uşaqlar yayda.

### Gölməçədəki günəş

Adi bir gündü,
Duru gölməçədən göyə zillənən
Göydəki gündü.

### Anamın heykəli

Qəbrinin üstündə incə bir lalə -
Anama gül heykəl qoyubdu bahar.
Elə bil, qəflətən – ay ana! – desəm,
Bu çiçək çevrilib üzümə baxar.

### İlahi dairə

Torpaqdan yaratdı,
Sonra baxdı, baxdı yaratdığının əməllərinə,
Yenidən torpağa çevirdi onu,
İstədi yoğurub
Bu dəfə daha da kamilləşdirsin.

### Hara gedirsən

İnsan qocalanda torpağa gedir,
Torpaqdan çıxırlar əlvan çiçəklər.
Görəsən, yolda bir-birinə rast gəlirlərmi
Gedib-gələnlər,
Bir-birindən soruşurlarmı:
– Hara gedirsən?

### Güllər

Yazda çəmənləri bəzəyən güllər,
Dünyalarını dəyişənlərin son sözləridir.
Burada qalan sevimlilərə
Gül göndərirlər yerin altından.

### Üçüncü rəng

Gecə gündüz kimi,
ağ-qara kimi
İki yerə bölünmüşdü o kənd, o oba.
Ortada uzun bir təpə var idi
Gecəylə gündüzün,
Ağla qaranın arasındakı
Məchul rəng kimi.

### Kəpənək ömrü

Yaşamalı idi kəpənək bir gün,
Həmin gün şıdırğı yağışlar yağdı,
Səhər asimana gün çıxdı, amma
Artıq qurtarmışdı kəpənək ömrü.



**İmir Məmmədli**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



### 7 fevral

•1914—Çarlz Çaplin ilk dəfə ekranda "Venesiyada Uşaq Avtomobili Rally" filmində görünüb.

•1962— Qriqol Berdzenişvili, gürcü dramaturq, vəfat edib.

•1964—Levan Uruşadze, gürcü tarixçi, politoloq və publisist, anadan olub.

•1974 — **Qrenada Birləşmiş Krallıqdan müstəqillik qazanıb.**

•1990— Sovet İttifaqının dağılması: Sovet Kommunist Partiyasının Mərkəzi Komitəsi hakimiyyət üzərindəki inhisarından əl çəkib.

•1992 — Avropa İttifaqının yaradılmasına səbəb olan Maastrixt sazişi imzalanıb

### 8 fevral

•1587 — Şotlandiya kraliçası Mariya Stüart başı kəsilərək edam olunub. Kraliça Mariya I Elizabetə sui-qəsd təşkil etməkdə təqsirləndirilib.

•1724— I Pyotrun fərmanı ilə Rusiya Elmlər Akademiyası yaradılıb.

•1828 — Jül Vern, Fransız yazıçı, anadan olub.

•1849— Yeni Roma Respublikası qurulub.

•1854— İvane Maçabeli, gürcü yazıçı və publisist, anadan olub.

•1922 — ABŞ Prezidenti Vorren Hardinq ilk radionu Ağ Evdə göstərib

•1958—Bobbi Fişer 15 yaşında ən gənc qrossmeyster olub.

•1971— Dünyanın ilk elektron birjası olan NASDAQ-da ticarət başlayıb.

### 9 fevral

•1836—Mamia Qurieli, gürcü şair, anadan olub.

•1881 — Fyodor Dostoyevski, Rus yazıçı, vəfat edib.

•1969—2005-ci ilə qədər dünyanın ən böyük təyyarəsi olaraq qalan Boeing 747-nin ilk sınaq uçuşu həyata keçirilib.

### 10 fevral

•1258—Monqol işğalları: Hülakü xanın ordusu Bağdadı işğal edir və İslamın qızıl çağına son qoyub.

•1784—II Yekaterinanın fərmanı ilə Krım limanı və qalası Sevastopol adlandırılıb.

•1828—İranla Rusiya arasında Türkmənçay müqaviləsi imzalanmışdır.

•1837 — Aleksandr Puşkin, Rus şair, vəfat edib.

•1990—Otar Qiqineişvili, gürcü tarixçi, ictimai xadim, vəfat edib.

### 11 fevral

•1752—ABŞ - də ilk olaraq Pensilvaniya Xəstəxanası açılıb.

•1809—Robert Fulton buxar mühərrikinin patentini alıb.

•1873 — İspaniya Kralı I Amadeus taxtdan imtina edib və Birinci İspaniya Respublikası yaranıb.

•1921—Bolşevik Rusiyası Gürcüstan Demokratik Respublikasına qarşı elan olunmamış müharibəyə başlayıb.

•1938 — BBC Televiziyası dünyanın ilk elmi fantastika televiziya proqramı olan Karel Çapekin "R. U. R." pyesinin adaptasiyasını hazırlayıb. Proqram "robot" sözünü ingilis dilinə gətirib.

• ABŞ — İxtiraçılar Günü

• Yaponiya — Milli Quruluş Günü

### 12 fevral

•1541 — Pedro de Valdivia Çilinin Santyaqo şəhərini təsis edib.

•1737—Avropanın ən qədim opera evi olan San Karlo açılıb.

•1804—Emmanuel Kant, alman filosof, vəfat edib.

•1919—Ukrayna Elmlər Akademiyası yaradılıb.

•1962—**Nana İoseliani, gürcü şahmatçı, anadan olub.**

### 13 fevral

•1769 — İvan Krılov, rus yazıçı, anadan olub.

•1850— İoseb Bakradze, gürcü şair, anadan olub.

•1960—Fransa ilk nüvə bombası sınağını keçirib.

•2009—**Bəxtiyar Vahabzadə, Azərbaycan şairi, vəfat edib.**

•Birləşmiş Millətlər Təşkilatı—Beynəlxalq Radio Günü

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## NANA İOSELİANİ



***Gürcü Şahmatının əfsanəsi Nana İoseliani Gürcüstanın və keçmiş Sovet İttifaqının ən güclü qadın şahmatçılarından biridir.*** O, beynəlxalq arenada yüksək nailiyyətlər əldə etmiş və qadınlar arasında dünya çempionluğu uğrunda iki dəfə finalda mübarizə aparmışdır.

Nana İoseliani 12 fevral 1962-ci ildə Gürcüstanın paytaxtı Tbilisidə anadan olub. Gənc yaşlarından şahmata maraq göstərmiş və tezliklə Gürcüstanın ən istedadlı şahmatçılarından birinə çevrilmişdir.

O, 1979 və 1980-ci illərdə Gənclər Avropa arasında Şahmat Çempionatında qızlar arasında ardıcıl iki dəfə çempion olub. Bu qələbələr onun beynəlxalq arenada parlamasına və daha yüksək səviyyəli turnirlərə qatılmasına imkan yaradıb.

Nana İoseliani qadınlar arasında dünyanın ən güclü şahmatçılarından biri hesab olunurdu. O, 1981, 1982, 1986 və 1987-ci illərdə dörd dəfə Sovet İttifaqının qadınlar arasında şahmat çempionatının qalibi olub. O, həmçinin iki dəfə dünya çempionluğu uğrunda final matçına çıxıb: 1988-ci ildə dünya çempionu Maia Çiburdanidze ilə oynayıb. Bu matç şahmat tarixinə keçmiş ən maraqlı qadınlararası dünya çempionatı finalı idi. İoseliani çempion olmaq üçün Çiburdanidze ilə 18 oyun oynadı, amma sonda 8½ - 9½ hesabı ilə məğlub oldu. Bu matç onun şahmatın zirvəsinə nə qədər yaxın olduğunu göstərdi.

1993-cü ildə İoseliani ikinci dəfə dünya çempionluğu finalına yüksəldi, amma Çin şahmatçısı Xie Junun qarşısında ciddi müqavimət göstərsə də, 2½ - 8½ hesabı ilə məğlub oldu. Bu məğlubiyyət onun şahmat karyerasının ən ağır anlarından biri idi.

Bu nəticələr onun dünyanın ən güclü qadın şahmatçılarından biri olduğunu göstərirdi.

Nana İoseliani Gürcüstan və Sovet İttifaqı şahmat komandalarının əhəmiyyətli üzvlərindən biri olub. O, Şahmat Olimpiadalarında iştirak edərək beş qızıl medal qazanıb: Sovet İttifaqı komandası ilə 1980, 1982, 1984 və 1988-ci illərdə çempion olub. Gürcüstan komandası ilə 1992-ci ildə qızıl medal qazanıb. Bundan əlavə, 1996-cı ildə Gürcüstan komandası ilə bürünc medal əldə edib.

Nana İoseliani gürcü və dünya şahmat tarixində mühüm iz qoymuş əfsanəvi şahmatçılardandır. Onun uğurları, cəsarətli oyunu və dövrünün ən güclü şahmatçıları ilə apardığı mübarizə şahmat dünyasında hələ də hörmətlə xatırlanır. O, təkcə oyunçu kimi deyil, həm də Gürcüstanın şahmat ənənələrinin davam etdirilməsinə töhfə verən bir sima kimi yadda qalıb.

## BƏXTİYAR VAHABZADƏ



***Azərbaycanın görkəmli şairi Bəxtiyar Vahabzadə (1925–2009) Azərbaycan ədəbiyyatının ən böyük simalarından biri, görkəmli şair, dramaturq və ictimai xadim idi.*** Onun yaradıcılığı milli ruh, vətənpərvərlik, azadlıq idealları və insanın mənəvi dünyasını əks etdirən dərin fəlsəfi düşüncələrlə zəngindir.

Bəxtiyar Vahabzadə 16 avqust 1925-ci ildə Azərbaycanın Şəki şəhərində anadan olub. Orta təhsilini Şəkidə aldıqdan sonra 1942-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olub. Burada təhsil aldığı dövrdə ədəbiyyata marağı daha da artıb və ilk şeirlərini yazmağa başlayıb.

1951-ci ildə namizədlik, 1964-cü ildə isə doktorluq dissertasiyasını müdafiə edib. Uzun illər Bakı Dövlət Universitetində professor kimi çalışıb və Azərbaycan ədəbiyyatının inkişafına böyük töhfələr verib.

Onun ilk şeir kitabı "Mənim Dostlarım" 1949-cu ildə nəşr olunub.

Bəxtiyar Vahabzadənin yaradıcılığı müxtəlif mövzuları əhatə edir. Onun şeirlərində və pyeslərində milli azadlıq və vətən sevgisi, insan və zaman, ailə və mənəvi dəyərlər, sovet dövründə milli dirçəliş ideyaları öz əksini tapır.

Şair Azərbaycan xalqının milli kimliyini və azadlıq arzularını ifadə edən əsərlər yazıb. "Gülüstan" poeması (1959) bu baxımdan xüsusilə əhəmiyyətlidir. Burada Azərbaycan torpaqlarının bölünməsi, xalqın faciəsi və azadlıq ideyaları ifadə olunur. O, zamanın dəyişməsi, insanın keçmişlə gələcək arasındakı münasibəti və həyatın fəlsəfi anlamı barədə dərin düşüncələrini qələmə alıb. Şair insanın mənəvi zənginliyi, ailə sevgisi, dostluq və xeyirxahlıq kimi mövzulara da xüsusi önəm verib. O, sovet senzurasına baxmayaraq, milli ruhu qaldıran şeirlər yazıb və bu səbəbdən bəzi əsərləri uzun müddət çap olunmayıb.

Ən məşhur əsərləri bunlardır: "Gülüstan" (1959) – Azərbaycan torpaqlarının bölünməsi ilə bağlı yazılmış epik poema. "Şəhidlər" (1990) – 20 Yanvar faciəsinə həsr olunmuş əsər. "Ömürdən Səhifələr" – Şairin müxtəlif dövrlərdə yazdığı şeirlər toplusu. "Muğam" – Azərbaycan muğam sənətinə həsr olunmuş fəlsəfi şeir.

Bəxtiyar Vahabzadə təkcə şair deyil, həm də ictimai xadim idi. O, Azərbaycanın milli müstəqillik hərəkatına dəstək verən ziyalılardan biri olub. 1980-ci illərin sonlarında Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə açıq dəstək verib və 1995-ci ildə Azərbaycan Milli Məclisinin deputatı seçilib.

Onun şeirləri və çıxışları Sovet hakimiyyətinə qarşı cəsarətli etiraz kimi qəbul edilirdi. Buna görə də, o, bir neçə dəfə ciddi nəzarət altında saxlanılıb və təzyiqlərə məruz qalıb.

Bəxtiyar Vahabzadə 13 fevral 2009-cu ildə vəfat edib və Fəxri Xiyabanda dəfn olunub. Onun əsərləri bu gün də Azərbaycan xalqı arasında sevilir və məktəb dərsliklərində tədris olunur. Azərbaycanın ədəbi və ictimai həyatında əvəzsiz rolu olan Bəxtiyar Vahabzadə, milli ruhun və azadlıq ideyalarının carçısı kimi tarixdə qalacaq.

## QRENADA



**Qrenada** – Karib Dənizinin Ətirli Adası Qrenada, Karib dənizində yerləşən kiçik, lakin maraqlı bir ada ölkəsidir. Cənubi Amerikanın şimalında, Trinidad və Tobaqonun şimal-qərbində, Sent-Vinsent və Qrenadinlərin cənubunda yerləşən bu ölkə həm füsunkar təbiəti, həm də zəngin mədəniyyəti ilə tanınır.

**Əhalisi:** Təxminən 125,000 nəfərdən ibarətdir. Əhalinin 80%-i Afrika mənşəli zəncilərdir,15%-i mulatlar, yerdə qalanlar isə ağ dərili avropalılar və hindistan pakistanlılardır.

Sent Corces Qrenadanın paytaxtı, onun siyasi və mədəni mərkəzidir. Sent Corces kiçik Antil adalarına aid olan Qrenada adasının qərb sahilində yerləşir. Dəniz səviyyəsindən 118 metr hündürlükdədir.

**Təbiət və İqlim:** Qrenada tropik iqlimə malikdir. Burada ilboyu isti və rütubətli hava hökm sürür. Ölkə vulkanik mənşəli olduğuna görə dağlıq relyefə malikdir. Adada zəngin meşələr, şəlalələr və füsunkar çimərliklər var.



Qrenada həmçinin "Ətirli Ada" (Spice Island) adlanır, çünki burada dünyada ən çox muskat qozu istehsal olunur. Bundan əlavə, banan, kakao, sitrus meyvələri, avokado, kök bitkiləri, şəkər qamışı, qarğıdalı, tərəvəz, darçın, mixək və zəncəfil kimi ədviyyatlar da geniş şəkildə yetişdirilir.

**Tarix və Mədəniyyət:** Qrenada 1498-ci ildə Kristofer Kolumb tərəfindən kəşf olunub və sonradan müstəmləkəçiliyə məruz qalıb. XVII əsrdə Fransa adanı idarə edib, lakin 1763-cü ildə Paris müqaviləsinə əsasən Böyük Britaniyanın nəzarətinə keçdi. 1974-cü ildə isə Qrenada müstəqilliyini elan edib.

Qrenadanın mədəniyyəti Avropa, Afrika və Karib təsirlərinin qarışığından ibarətdir. Ölkədə illik karnavallar, rəngarəng festivallar və musiqi tədbirləri keçirilir. Soca və reqqi kimi musiqi janrları burada çox populyardır.

**Təhsil:** Qrenadada təhsil uşaq bağçası, məktəbəqədər hazırlıq, ibtidai təhsil və ali təhsildən ibarətdir. Hökumət təhsilə üstünlük verib, 2016-cı ildə büdcəsinin 10,3%-ni bu sektora xərcləyib ki, bu da dünyada üçüncü ən yüksək göstəricidir. Savadlılıq göstəriciləri çox yüksəkdir, əhalinin 98,6%-i oxumaq və yazmaq qabiliyyətinə malikdir.

**İqtisadiyyat:** Qrenadanın əsas gəlir mənbələri turizm, kənd təsərrüfatı və ədviyyat ixracıdır. Xüsusilə ekoturizm və dalğıc turizmi burada çox populyardır. Ən məşhur yerlərdən biri sualtı heykəl parkıdır.

**Turizm:** Qrenada turizm baxımından olduqca cəlbedici bir ölkədir. Burada həm füsunkar çimərliklər, həm tropik meşələr, həm də maraqlı tarixi yerlər var.

Turistlər üçün maraqlı yerlər: St. George's Forts – Tarixi qalalar, Grand Etang Milli parkı – Vulkanik göl və tropik meşələr, Annandale Falls — Tropik meşələr içində gizlənmiş şəlalə, Underwater Sculpture Park — Dünyanın ilk sualtı heykəl parkı. və s.

**Annandale Falls** – Tropik meşələr içində gizlənmiş şəlalə. Annandale Falls Qrenadaya gələn turistlərin ən çox ziyarət etdiyi təbii gözəlliklərdən biridir. Sərin sularda üzə bilər və ya sadəcə təbiətdən zövq ala bilərsiniz.

**Underwater Sculpture Park** – Dünyanın ilk sualtı heykəl parkı. Bu unikal sualtı muzey Qrenadanın sahillərində yerləşir və dünyanın ilk sualtı heykəl parkı hesab olunur. Heykəllər dəniz ekosisteminin bir hissəsinə çevrilib və mərcanlar, balıqlar üçün yaşayış mühiti yaradıb.

Qrenada Karib dəni-zinin incilərindən biri olmaqla, həm gözəlliyi, həm də zəngin tarixi və mədəniyyəti ilə diqqət çəkir. Əgər ekzotik təbiət, unudulmaz çimərliklər və ədviyyat qoxulu küçələr axtarırsınızsa, Qrenada ideal seçimdir!



GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



## QƏZETİMİZİN TƏƏSSÜBKEŞİ

# QAPIMIZI DÖYƏN KİMDİR?



Hər həftənin cümə günü qapımız açılır, içəri hündürboylu, gözləri eynəkli, sadə geyimli, əlində kiçik torba olan bir şəxs daxil olur. Əvvəlcə salamlaşır, kef-əhvalımızı soruşur, sonra torbasını qurdalayır, içindən bizim üçün gətirdiyi şiriniyyatı, ədvanı və ya müxtəlif vitaminləri bir-bir təqdim edir, ünvanımıza xoş sözlər deyəndən sonra abunə yazılıdığı qəzetimizi götürür, elə buradaca gözdən keçirir və sağollaşaraq gedir. Onu siz də tanıyın — Füzuli (Firdovsi) Adilpaşa oğlu Rüstəmov. Tbilisi sakinidir. Vaxtilə rəhmətlik redaktorumuz Süleyman Süleymanovla birlikdə "Birlik" mədəni-xeyri cəmiyyətini təsis etmiş tanınmış ziyalı Adilpaşa Rüstəmovun oğludur. Qəzetlə əlaqəni heç vaxt kəsmir. Bu, bizi sevindirir. Heç olmasa qapımızı kimsə döyür. Sağ olun, Füzuli müəllim! Sizin bu alicənablığınız və təəssübkeşliyiniz, arzu edirik ki, başqalarına da sirayət etsin.

"Gürcüstan"

## MARAQLIDIR

# DÜNYANIN ƏN MƏDƏNİ ÜÜ SÜRÜCÜLƏRİ

Turistlərin təcrübələrinə əsaslanaraq hazırlanan siyahı dünyanın ən nəzakətli sürücülərinə malik ölkələri müəyyən edib.

DiscoverCars.com tərəfindən aparılan araşdırmada 4930 turist sürücüsü iştirak edib. Araşdırma nəticəsində iştirakçılar sürücüləri 1-dən 10-a qədər balla qiymətləndiriblər. Siyahının başında 8,83 balla Cənubi Kipr yer alır, ABŞ isə siyahının sonunda 7,14 balla qərarlaşıb.

Türkiyə 8,73 balla 3-cü sırada




yer alıb. Bu, xüsusilə İstanbul və digər böyük şəhərlərdəki sıx tıxac şəraitində sürücülərin göstərdiyi nəzakəti düşündükdə, bir az təəccübləndirici ola bilər. Lakin araşdırmanın nəticələri göstərir ki, Türkiyədə turistlər yerli sürücülərin ümumilikdə nəzakətli və anlayışlı olduğunu bildiriblər.

Dünyanın ən nəzakətli sürücülərinin ölkələri ilə tanış olun:

Cənubi Kipr - 8,83;
Yeni Zelandiya - 8,77;
Türkiyə - 8,73;
Avstraliya - 8,60;
Portuqaliya - 8,54;
Almaniya - 8,45;
İspaniya (Kanarya Adaları) - 8,31;
İspaniya - 8,29;
Polşa - 8,25;
Mauritius - 8,25;
İtaliya (Materiq)- 8,02;
Mərakeş - 7,97;
Fransa - 7,84;
Birləşmiş Ərəb Əmirlikləri - 7,80;
İtaliya (Siciliya) - 7,14;
ABŞ (Florida) - 7,14.

Bu araşdırma, sürücülərin nəzakətini və nəzarətini qiymətləndirərək, dünya üzrə fərqli ölkələrin sürücülük mədəniyyətlərini bir daha sübut edib.

## BAŞSAĞLIĞI



Qardabani bələdiyyəsinin Vaxtanqisi 1 saylı ictimai məktəbinin müəllim kollektivi həmin məktəbin ibtidai sinif müəllimi

**Xədicə Mustafa qızı Süleymanovanın**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər!

**Allah rəhmət eləsin!**



Qardabani bələdiyyəsinin sakinləri Əbdüləli İbrahimsoy, Aydın Abdullayev Güləhməd Hüseynov, Şahmurad Həsənov, Tofiq Qarayev və Nəcəfəli Bayramov Kalinin kənd sakini

**Məşədirəhim Rəhimovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

# DUYĞULARIN MƏSUM BAXIŞI



Foto E.Şahvələdindir.

## QOROSKOP

# İKİ BÜRCÜN ÜZÜ GÜLƏCƏK: İŞSİZLƏRƏ İŞ, SUBAYLARA TOY

***Bu ilin ilk Yeni Ayı Dolça bürcündə baş verib. Astroloqlar Dolça Yeni Ayında bir neçə bürcün həyatlarında yeni səhifə açacağını bildirib.***

Bu ay iki bürc iş və eşq həyatlarında yeni səhifə aça və dönüş nöqtələri yaşaya bilər.

**Dolça**

Yeni Ay birbaşa Dolça bürcündə olduğundan, şəxsi inkişaf, hədəflər və yeni başlanğıclar baxımından böyük fürsətlər gətirə bilər. Zəhmətkeşliyi ilə tanınan Dolçalar ideyalarını həyata keçirmək üçün şanslı dövrə qədəm qoya bilərlər. Eşq və iş həyatında dönüş dövrü yaşayan bu bürclər cəsarətli addımlar atacaqlar.

**Tərəzi**

Tərəzi üçün Dolça Yeni Ayının eşq həyatı, yaradıcılıq və ictimai mühit baxımından müsbət təsirləri ola bilər. Tərəzilər həyatlarında təmiz səhifə açmaq baxımından şanslı dövrə girə bilərlər. İş imkanları artacaq bu bürcün nümayəndələri, romantik münasibətlərdə də gözlənilməz və müsbət inkişaflar yaşaya bilər.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

# "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი" ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.